HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 20 (914) ■ 30 may 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Prezident İlham Əliyev: «Müstəqillik ən böyük sərvətimiz, ən böyük nemətimiz, ən böyük xoşbəxtliyimizdir»

## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə bayram tədbirləri keçirilib

Mayın 28-də Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni milli bayram - Respublika Günü münasibətilə ziyarət edib. Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülüb. Dövlətimizin başçısı abidənin önünə əklil qoyub. Həmin gün Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.



Rəsmi qəbulda nitq söyləyən dövlətimizin başçısı bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir: «İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır».

Azərbaycan Prezidenti qeyd edib ki, Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərsə də, bu müddət ərzində böyük işlər görə bilmişdir: «Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir. Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi».

Dövlətimizin başçısı bildirib ki, 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirilib və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırıb. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilib. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra Azərbaycanın öz dövlət müstəqilliyini möhkəmləndirdiyini diqqətə çatdıran Prezident İlham Əliyev vurğulayıb ki, 1993-cü il tariximizdə dönüş nöqtəsi olub: «Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə də Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir. Bu çətin şəraitdə Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən çıxara bilmişdir, inkişaf yoluna qoya bilmişdir. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir».

Prezident İlham Əliyev vurğulayıb ki, bu gün dünya xəritəsində belə ölkələrin sayı o qədər də çox deyil: «Xüsusilə biz ərazisi, əhalisi o qədər də böyük olmayan ölkələrə fikir versək görərik ki, müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr o qədər də çox deyil. Biz tam müstəqil siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsir etmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir. Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Gələn il biz BMT-dən sonra ikinci böyük təşkilata - Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacağıq. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Bəzi təşkilatların üzvüyük, bəzi təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir».

Dövlətimizin başçısı bildirib ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır: «Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi. Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir».

Prezident İlham Əliyev bildirib ki, son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir - Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb və bu, dünya miqyasında analoqu olmayan inkişafdır: «Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, əgər dünyanın iqtisadi xəritəsinə baxsaq görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz yaratmışıq, heç bir yerdən kömək, yardım almadan, düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil və məhz buna görə də inamla öz müstəqil siyasətini aparır. Bizim iqtisadi uğurlarımız mötəbər beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Rəqabətqabiliyyətliliyə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir, inkişafda olan ölkələr arasında inkişafa görə üçüncü yerdədir».

Azərbaycan Prezidenti çıxışının sonunda müstəqilliyin ən böyük sərvət olduğunu bəyan edib: «Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir!».

Həmin gün Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakı Kristal Zalında təşkil edilən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş təntənəli konsertdə iştirak ediblər.

## Rəsmi xronika

■ Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Sandra Oudkirkin Cənub Qaz Dəhlizinin rəsmi açılışında və XXV Beynəlxalq Neft və Qaz Sərgisində iştirak etdiyinə görə minnətdarlığını bildirib. AÇŞ-ın bu tədbirlərdə belə yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev qlobal enerji layihələrinin reallaşdırılmasında ABŞ hökumətinin dəstəyini yüksək qiymətləndirib və ölkələrimizin uzun illər həyata keçirdiyi tərəfdaşlıq əlaqələrinin çox yaxşı nəticələr verdiyini deyib. Dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə göndərdiyi məktuba görə təşəkkürünü bildirib və həmin məktubda əməkdaşlığımızın mühüm istiqamətlərindən olan enerji sahəsində əlaqələrin inkişafı barədə ifadə etdiyi fikirlərin münasibətlərimizin yüksək səviyyəsinin nümunəsi olduğunu vurğulayıb.

Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasiminə dəvətə görə minnətdarlığını bildirən Sandra Oudkirk ölkələrimiz arasında energetika sahəsində möhkəm əsaslara söykənən əlaqələrin həyata keçirildiyini və bu əlaqələrin regionda əməkdaşlığın genişləndirilməsi, eyni zamanda, Avropanın enerji təchizatının şaxələndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirib.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi vurğulanıb, əlaqələrimizin bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olunub.

■ Prezident İlham Əliyev mayın 29-da «Microsoft» şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə prezidenti Filip Roqu qəbul edib. Görüşdə Azərbaycan ilə «Microsoft» şirkəti arasında səmərəli əməkdaşlığın aparıldığı bildirilib, bu təşkilatın Azərbaycanda həyata keçirdiyi bir sıra layihələrin önəmi qeyd olunub. Filip Roq təmsil etdiyi şirkətin fəaliyyəti ilə bağlı məlumat verib. Dövlətimizin başçısı Azərbaycanda İKT sahəsinin qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri olduğunu vurğulayaraq, ölkəmizdə bununla bağlı görülən işlərdən danışıb.

■ Prezident İlham Əliyev mayın 29-da Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurini qəbul edib. Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirakına görə qonağa minnətdarlığını bildirib, Azərbaycan ilə Qaz İxrac Edən Ölkələr Forumu arasında uğurlu əməkdaşlıq həyata keçirildiyini deyib.

Cənub Qaz Dəhlizinin rəsmi açılışının əhəmiyyətini qeyd edərək bu tədbirə dəvətə görə minnətdarlığını bildirən Yuri Sentyurin Bakıya bu səfəri zamanı inanılmaz inkişafın şahidi olduğunu vurğulayıb. O, Azərbaycanın Qaz İxrac Edən Ölkələr Forumuna müşahidəçi qismində qoşulmasından keçən dövr ərzində ölkəmizin təşkilatın fəaliyyətinin gücləndirilməsinə öz töhfəsini verdiyini xüsusi qeyd edib. Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

■ Mayın 28-də Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib. Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi və 25-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində iştirak etmək üçün Azərbaycana səfər etdiyinə görə Baronessa Emma Nikolsona minnətdarlığını bildirib. Söhbət zamanı Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi, BP və SOCAR şirkətləri arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edilib. Baronessa Emma Nikolson Bakıda keçirilən Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi və 25-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin önəminə toxunaraq bu tədbirlərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə üst-üstə düşməsinin rəmzi xarakter daşıdığını vurğulayıb.

■ Prezident İlham Əliyev mayın 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Jan-İv Lö Drianı qəbul edib. Söhbət zamanı Azərbaycan ilə Fransa arasında dostluq əlaqələrinin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, fransız şirkətlərinin ölkəmizdə uzun illər səmərəli fəaliyyət göstərdikləri, Azərbaycanda nəqliyyat, kosmik sənaye, infrastruktur, kənd təsərrüfatı və digər sahələrdə bir çox layihələri uğurla icra etdikləri qeyd olunub, Fransa şirkətlərinin Azərbaycanda fəaliyyətindən razılıq hissi keçirdikləri diqqətə çatdırılıb.

Söhbət zamanı Cənub Qaz Dəhlizinin icrasının önəmi qeyd olunub, SOCAR-la TOTAL şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxunularaq Bakıda fransız liseyinin fəaliyyətinin bu sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olunub. Jan-İv Lö Drian Fransız-Azərbaycan Universitetinin yaradılmasına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

■ Mayın 26-da ADA Universitetində məzun günü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva tədbirdə iştirak ediblər. ADA Universitetinin rektoru, xarici işlər nazirinin müavini, səfir Hafiz Paşayev dövlətimizin başçısına bu təhsil ocağının fəaliyyətinin genişləndirilməsi layihəsi ilə bağlı məlumat verib.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev məzunları təbrik edib və onların bir qrupuna diplomları təqdim edib.

■ Mayın 24-də Bakı şəhərinin Qaradağ rayonunun Lökbatan qəsəbəsinin şimal-şərqində Lökbatan-Qobu yolunun 3 kilometr şərq hissəsində məcburi köçkünlər üçün salınmış «Qobu Park» yaşayış kompleksinin açılışı olub. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım yeni kompleksdəki mənzillərdə, uşaq bağçasında və tam orta məktəbdəki şəraitlə tanış olublar.

Həmin gün Prezident İlham Əliyev Qaradağ rayonunda yenidən qurulan Lökbatan-Qobu avtomobil yolunun açılışında da iştirak edib.

Azərbaycanın neft-qaz sənayesinin inkişafında yeni dövr başlanır
səh. 2

Vergilər naziri vergi qanunvericiliyində ediləcək dəyişiklikləri açıqladı
səh. 2

Cümhuriyyətin neft sənayesi strategiyası
səh. 4

«Vergi» bilik yarışının qalibləri müəyyən edildi
səh. 5

Mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

# Azərbaycanın neft-qaz sənayesinin inkişafında yeni dövr başlanır

Mərasimdə geniş nitq söyləyən Prezident İlham Əliyev bildirib ki, bu gün ölkəmizin tarixində çox əlamətdar, tarixi bir gündür. Bu gün Cənub Qaz Dəhlizinin rəsmi açılışı ilə yanaşı, Bakı Ekspo Mərkəzində XXV Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayıb. 25 il ərzində ilk dəfədir ki, Xəzər Neft-Qaz Sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir: «Xəzər Neft-Qaz Sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.Qeyd etdiyim kimi, 4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır».

Azərbaycan Prezidenti qeyd edib ki, 1994-cü il sentyabrın 20-də «Əsrin kontraktı» imzalanıb və kontraktın müddəti keçən il 2050-ci ilə qədər uzadılıb. 1994-cü ildən sonra ikinci böyük kontrakt «Şahdəniz» qaz yatağı üzrə imzalanıb: «Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə Cənub Qaz Dəhlizinin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addımdır. «Şahdəniz» qaz yatağı Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır».

2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, 2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verildiyini xatırladan dövlətimizin başçısı ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazının Gürcüstana və Türkiyəyə nəql edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, həmin vaxtdan «Şahdəniz» yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanılıb: «Biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP - Transanadolu qaz kəməri üzrə müqavilə imzalandı. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də, - o da çox rəmzi məna daşıyır, çünki «Əsrin kontraktı» 1994-cü il sentyabrın 20-də imzalanmışdır, - 20 ildən sonra Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da böyük və tarixi hadisədir».




Prezident İlham Əliyev bildirib ki, nəhəng infrastruktur layihəsi olan Cənub Qaz Dəhlizinin icra edilməsinə indiyədək 40 milyard dollardan çox sərmayə qoyulub: «Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri əminəm ki, bunu təsdiqləyəcək».

Dövlətimizin başçısı qeyd edib ki, Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir: «Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Bax, geniş beynəlxalq əməkdaşlıq yaradılıb. Eyni zamanda, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi əminəm ki, növbəti mərhələdə bu layihəyə qoşulacaqlar. Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Biz ixrac imkanlarımızı genişləndirmək istəyirik. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat var. Biz də istəyirik daha çox qazı Avropaya sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır. Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır».

Mərasimdə ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini xanım Sandra Oudkirk və Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson da çıxış edib. E.Nikolson Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin mərasim iştirakçılarına müraciətini oxuyub, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral isə Prezident Rəcəb Tayyib Ərdoğanın müraciətini səsləndirib.

Tədbirdə Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin və «BP Group Upstream»in baş icraçısı Bernard Luney də çıxış ediblər.

«Şahdəniz 2» və «Cənub Qaz Dəhlizi» layihələri haqqında videoçarx təqdim olunduqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənub Qaz Dəhlizinin açılışını edib.

Mayın 29-da Bakı Ekspo Mərkəzində XXV yubiley Beynəlxalq «Xəzər Neft və Qaz-2018» sərgisi işə başlayıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərgi ilə tanış olublar. Məlumat verilib ki, bu il «Xəzər Neft və Qaz» sərgisinin yubileyi sərginin keçirildiyi ilk gündən bu tədbiri dəstəkləyən və onun təşəbbüskarı olan ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə təsadüf edir. Birinci sərgi 1994-cü ildə, elə həmin ilin sentyabr ayında Xəzər hövzəsində karbohidrogen ehtiyatlarının genişmiqyaslı işlənilməsinin əsas istiqamətlərini müəyyən edən və ölkəmizin neft tarixində yeni səhifə açan «Əsrin müqaviləsi»nin imzalanması ərəfəsində keçirilib. O vaxtdan etibarən «Xəzər Neft və Qaz» sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü, əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı platformaya çevrilib. Ötən dövrdə sərgilərdə dünyanın 70-dən çox ölkəsini təmsil edən təxminən 7500 şirkət iştirak edib. Builki sərgidə 38 ölkədən 312 neft-qaz şirkəti iştirak edir. Belarus, İtaliya və Rusiya tədbirdə milli qruplarla təmsil olunur.

Dövlətimizin başçısı və xanımı sərgi və konfransın xatirə kitabını imzalayıblar. Sərgi təşkilatçıları adından dövlətimizin başçısına və birinci xanıma xatirə hədiyyələri təqdim olunub. Sonra Prezident İlham Əliyev «Xəzər Neft və Qaz» sərgi-konfransının 25 illiyi münasibətilə Azərbaycanın nailiyyətlərinin təbliğində və xarici ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsində xidmətlərinə görə «ITE Group Plc» şirkətinin baş məsləhətçisi Endryu Vuda və «ITE Group Plc» şirkətinin regional direktoru Strahan Edvard Corc Dankana «Dostluq» ordenini, «ITECA Caspian» şirkətinin icraçı direktoru Fərid Məmmədova isə «Tərəqqi» medalını təqdim edib.

# Vergilər naziri vergi qanunvericiliyində ediləcək dəyişiklikləri açıqladı

Mayın 25-də Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanda Sahibkarlar Gününə həsr edilmiş konfrans keçirilib. Tədbirdə çıxış edən vergilər naziri Mikayıl Cabbarov vergi sistemində aparılan islahatlar və vergi qanunvericiliyində gözlənilən dəyişikliklər barədə açıqlamalar verib.




M.Cabbarov qeyd edib ki, bu il vergi qanunvericiliyində dəyişikliklər üzrə bir sıra təkliflər təqdim olunacaq və hazırda bununla bağlı aidiyyəti qurumlarla müzakirələr aparılır. Təklif edilən dəyişikliklər barədə məlumat verən nazir bildirib ki, mikro və kiçik sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması nəzərdə tutulur. Digər mühüm məsələ dövlət başçısının tapşırığı ilə vergi yükünün azaldılmasına və işçilərin əmək haqlarının vergiyə cəlb edilməsinin sadələşdirilməsinə yönəldilən islahat tədbiridir. Bu yeni yanaşma əməkhaqqına tətbiq olunan vahid vergi yükünün müəyyənləşdirilməsini nəzərdə tutur. Müzakirə olunan vahid vergi yükünün həcmi hazırda qüvvədə olan qanunvericiliklə tətbiq edilən vergi yükündən əhəmiyyətli dərəcədə fərqlənir, yəni aşağıdır. Belə bir islahatın həyata keçirilməsi qeyri-rəsmi məşğulluğun, o cümlədən əmək haqlarının uçotda real şəkildə əks etdirilməsinə, işçilərin hüquqlarının müdafiə olunmasına xidmət edəcək.

Vergi qanunvericiliyinə ediləcək digər dəyişikliklər vergi uçotunun bərpası və şəffaflaşdırılması, həmçinin vergidən yayınma hallarına görə cəza tədbirlərinin sərtləşdirilməsi ilə bağlıdır. Vergilər naziri vurğulayıb ki, vicdanlı vergi ödəyicisi ilə qeyri-vicdanlı davranan ödəyici arasında fərq qoyulmalıdır. Vicdanlı vergi ödəyicisinin səhv etməyə haqqı var. Vergi orqanının vəzifəsi bu səhvin başvermə anını gözləmək deyil, bütün vasitələrlə onun qarşısını almaqdır.

Vergi güzəştləri və azadolmalarla bağlı hər konkret hal üçün fərdi yanaşma metodu tətbiq edilməlidir. Bu güzəştlər xüsusi əhəmiyyət kəsb edən sahələr üçün lazımdır. Məsələn, kənd təsərrüfatı sahəsində əldə olunmuş nəticələr pozitiv dəyərləndirilir. Lakin şüurlu surətdə vergidən yayınma ilə məşğul olan sahibkarlara vergi güzəşti verilməsi məqbul hesab edilə bilməz.

Vergilər naziri 2018-ci ilin ilk 4 ayında əvvəlki ilin eyni dövrü ilə müqayisədə səyyar vergi yoxlamalarının sayının 40% azaldığını da qeyd edib.

# Vergi orqanlarında işə qəbulla bağlı test imtahanı keçirilib

Məlum olduğu kimi, 2017-ci il dekabrın 1-də dövlət vergi orqanlarına işə qəbul üzrə növbəti müsabiqə elan edilib. Müsabiqə elanı KİV-də, o cümlədən Vergilər Nazirliyinin rəsmi internet saytında, habelə sosial şəbəkələrdə yerləşdirilərək ictimaiyyətə açıq elan edilib. Elanda sənəd qəbulu, müsabiqənin keçirilməsi şərtləri və qaydaları barədə ətraflı məlumat öz əksini tapıb. Müsabiqə üzrə ilkin sənəd qəbulu 2017-ci il dekabrın 5-dən 30-dək aparılıb. Lakin müsabiqə prosesində bir sıra yeniliklərin tətbiqinin nəzərdə tutulması, habelə sonradan yaranmış vakant vəzifələrin təhlili sənəd qəbulu müddətinin artırılması zərurətini yaradıb. Qeyd edilənləri nəzərə alaraq, 30 aprel - 9 may tarixlərində müsabiqə üzrə əlavə sənəd qəbulu elan edilib.

May ayının 26-da Vergilər Nazirliyi Dövlət İmtahan Mərkəzi ilə birlikdə vergi orqanlarında işə qəbulla bağlı test imtahanı keçirib. Müsabiqədə iştirakla bağlı 1731 nəfər vətəndaş müraciət edib, onlardan vakant vəzifələrin tələblərinə uyğun olan 1517 nəfər namizəd qismində müsabiqədə iştiraka buraxılıb. Müsabiqə test imtahanı və müsahibə olmaqla iki mərhələdən ibarətdir. İmtahan zamanı namizədlərin biliklərinin daha effektiv qiymətləndirilməsi məqsədilə test tapşırıqlarının tərtibində istifadə edilən ədəbiyyat siyahısından ibarət test proqramı nəzərdən keçirilərək yenilənib. İnformatika və məntiq test bloklarının namizədlərin bilik və bacarıqlarının yoxlanılmasında rolunun gözlənilən səviyyədə olmadığı nəzərə alınaraq, həmin bloklar test imtahanından çıxarılıb, onların yerinə Vergi Məcəlləsinin xüsusi hissəsi və digər aidiyyəti qanunvericilik sahəsi üzrə namizədlərin biliklərinin tətbiqi bacarıqlarının və analitik təhlil qabiliyyətlərinin yoxlanılması məqsədilə məsələ - kazus tipli test tapşırıqlarının sayı artırılıb. Namizədlərin imtahana daha yaxşı hazırlaşmasına imkan yaratmaq məqsədilə test imtahanı üzrə ədəbiyyat siyahısı nazirliyin internet saytı vasitəsilə namizədlərə çatdırılıb.



Test imtahanının nəticələri Vergilər Nazirliyinin internet saytı vasitəsilə ictimaiyyətə açıq elan ediləcək.

Qanunvericiliyə uyğun olaraq, test imtahanında uğur qazanmış namizədlər müsahibənin ikinci mərhələsinə - müsahibəyə buraxılacaqlar. Müsahibələrdə namizədlərin müvafiq sahədə bilikləri və onları tətbiq etmək bacarıqları, ümumi dünyagörüşü yoxlanılır. Şəffaflığın təmin edilməsi üçün müsahibə kollegial şəkildə - Müsabiqə Komissiyası tərəfindən aparılır, audio-video çəkilişdən istifadə edilir.

Müsahibənin nəticələri nazirliyin internet saytı vasitəsilə ictimaiyyətə açıqlanır. Müsahibədə uğur qazanan namizədlər dövlət vergi orqanlarının ehtiyat kadrlar siyahısına daxil ediləcək və onların vakant vəzifələrə təyinatı üzrə müvafiq tədbirlər görüləcəkdir.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- 3 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əməkdaşları Qusar rayonunda ictimai iaşə, pərakəndə ticarət, topdansatış ticarət və istehsal sahələri üzrə yeni uçota alınmış vergi ödəyiciləri ilə görüşmüşlər. Görüşdə «Elektron qaimə-fakturanın tətbiqi və vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları», «Nağdsız hesablaşmalar haqqında» Qanun, «Açıq hökumət» prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, sahibkarların hüquqlarının müdafiəsi ilə bağlı geniş söhbət aparılmış, tədbir iştirakçılarının sualları cavablandırılmışdır.
- 4 saylı ƏVİ-nin əməkdaşları Ağsu şəhərində ictimai iaşə və pərakəndə satışla məşğul olan vergi ödəyiciləri ilə görüşmüşlər. «İnsan hüquqları aylığı»na həsr edilmiş görüşdə vergi ödəyicilərinin hüquq və öhəlikləri ilə bağlı zəruri məlumatlar verilmişdir. Tədbir zamanı «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», həmçinin «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» qaydalarının tətbiqinə dair vergi ödəyicilərini maraqlandıran məsələlərə aydınlıq gətirilmişdir.
- 6 saylı ƏVİ tərəfindən Lənkəran şəhərində 4 saylı humanitar təmayüllü məktəb-liseyin şagird və müəllim heyəti ilə görüş keçirilmişdir. Tədbirdə «Dövlət və vergi», «Vergilər, onların əlamətləri və prinsipləri», «Dövlət büdcəsi» kimi mövzular ətrafında söhbət aparılmışdır.
- 9 saylı ƏVİ-nin əməkdaşları Göyçay rayonunda qeydiyyatda olan bələdiyyələrlə görüş keçirmişlər. Görüş zamanı «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu» ilə bağlı metodiki vəsaitlərin tətbiqi, eləcə də bələdiyyə tərəfindən hesablanmış torpaq vergisinin məbləği və ödənilmə müddəti, nağdsız hesablaşmaların genişləndirilməsi, əmək müqaviləsinin rəsmiləşdirilməsi barədə bələdiyyələrə ətraflı məlumat verilmişdir.
- 13 saylı ƏVİ-nin əməkdaşları ilə Qax rayonunun Qum kəndində Z.Müslümov adına tam orta məktəbin və rayon təhsil şöbəsi nümayəndələrinin, «Vergi dostları» şəbəkəsinin üzvlərinin, eləcə də kənddə fəaliyyət göstərən sahibkarların iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə ölkənin vergi sistemində aparılan vergi siyasətinə uyğun olaraq gənc nəslin, o cümlədən şagird və tələbələrin vergilər haqqında bilik və anlayışlarının artırılması və onlarda vergi mədəniyyətinin formalaşdırılması istiqamətində Vergilər Nazirliyi ilə Təhsil Nazirliyinin birgə əməkdaşlığı barədə danışılmışdır. Sonra şagirdlərin ifasında vergilər haqqında səhnəciklər göstərilmiş, şeirlər, atalar sözləri səsləndirilmişdir.

# Səmərəli islahatlar, real nəticələr



Azərbaycanda həyata keçirilən iqtisadi islahatlarla bağlı suallarımızı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, iqtisad elmləri üzrə fəlsəfə doktoru Tahir Mirkişili cavablandırır.

***- Tahir müəllim, ölkə iqtisadiyyatının bugünkü inkişaf tempini necə dəyərləndirərdiniz?***

- Bu gün dünyada gedən proseslər iqtisadi islahatları daha da genişləndirməklə müntəzəmliyinin təmin edilməsini, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasını tələb edir. Bu baxımdan, idxaldan asılılığın azaldılması, ixracyönümlü qeyri-neft sektorunun inkişafı kimi prioritetlərin ön plana çəkilməsi, mövcud potensialdan və investisiya mühitindən daha səmərəli istifadə olunması vacib şərtlərdəndir.

Hazırkı mərhələdə Azərbaycan hökumətinin qarşısında duran başlıca vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq, qeyri-neft sektorunun yüksək inkişaf tempini təmin etməklə ixrac imkanlarını genişləndirməkdir. Odur ki, dünyada baş verən iqtisadi proseslər fonunda ölkə iqtisadiyyatının inkişafı, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın genişləndirilməsi üçün əlverişli imkanlar yaradılması, qeyri-neft ixrac potensialının artırılması sahəsində ciddi islahatlar aparılıb. Eyni zamanda, idxalın əvəzlənməsi, yerli sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi istiqamətində mühüm qərarlar qəbul edilib.

2017-ci ildə aparılan iqtisadi islahatlar öz nəticələrini artıq 2018-ci ilin ilk aylarında göstərməyə başlayıb. Ötən il makroiqtisadi sabitliyə nail olan ölkə iqtisadiyyatı artıq bu ilin ilk rübündə 2,3 faiz artıb. İqtisadiyyatın qeyri-neft sektorunda isə təqribən 3 faiz artım müşahidə olunub: sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi və istehsalı 10 faiz; kənd təsərrüfatında məhsul istehsalı 4,2 faiz artıb.

2018-ci ilin ilk rübündə ölkə iqtisadiyyatına 3,5 mlrd. dollar vəsait yatırılıb, valyuta ehtiyatlarımız 2.2 mlrd. dollar artaraq 44.2 mlrd. dollara çatıb. Xarici ticarət dövriyyəsi 31 faiz artıb. Ümumi ixrac 24 faiz, qeyri-neft ixracı isə 37 faiz çox olub. Bütün bu göstəricilər Azərbaycan iqtisadiyyatının sürətli iqtisadi inkişaf mərhələsinə qədəm qoyduğunu deməyə əsas verir.

> “Azərbaycan hökumətinin qarşısında duran başlıca vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq, qeyri-neft sektorunun yüksək inkişaf tempini təmin etməklə ixrac imkanlarını genişləndirməkdir

***- İxrac potensialının yüksəlməsi Azərbaycan iqtisadiyyatının daha dinamik inkişafı ilə bağlı hansı perspektivləri vəd edir?***

- Prezident İlham Əliyevin «Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamına əsasən, bu sahədə rəqabət qabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, sahibkarlar üçün mövcud əlverişli şəraitin daha da genişləndirilməsi məqsədilə bir sıra vacib tədbirlərin həyata keçirilməsi vəzifəsi qarşıya qoyulub. Dövlət başçısının «Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» fərmanına əsasən isə Azərbaycanda istehsal olunan və istehsal prosesində istifadə edilən yerli komponentlərin və qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac olunan həmin məhsulların növündən asılı olaraq, bu sahə ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilir və bu proses 2020-ci ilədək davam etdiriləcək.

Ölkədə ixraca yönəlik iqtisadi islahatların aparılması qısa müddətdə öz bəhrəsini verməyə başlayıb. İxracın həcmcə artması ölkəyə valyuta axınının artmasına, coğrafi cəhətdən genişlənməsi isə iqtisadi dayanıqlığın yüksəlməsinə səbəb olub. Qeyri-ənənəvi bazarlara çıxış üçün innovativ səylərin göstərilməsi yaxın gələcəkdə ölkə iqtisadiyyatının strukturunda da mühüm dəyişikliklərə gətirib çıxaracaq. Belə ki, ixrac siyasəti və xarici bazarlarda rəqabət ölkə iqtisadiyyatında müasir texnologiyaların tətbiqini və müasir idarəetmə metodlarını qaçılmaz edir. Bu baxımdan, yeni yaradılan müəssisələrin müasir texnologiyalar və innovasiyalar üzərində qurulması qaçılmazdır.

***- Ölkənin ümumi inkişafında qeyri-neft sektorunun payının artması mühüm rol oynayır. Dövlətin bu sahənin inkişafına yönəlmiş siyasəti büdcə gəlirlərinin artımına necə təsir göstərir?***

- İqtisadiyyatın diversifikasiyası, inkişafın əsas hərəkətverici qüvvəsi olan qeyri-neft sektorunun yüksəlişi həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Aparılan islahatlar nəticəsində son illər ərzində bu sahədə mühüm nailiyyətlər əldə olunub, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, ixrac potensiallı rəqabətqabiliyyətli malların istehsalı genişlənib. Dövlətin qeyri-neft sektorunu dəstəkləməsi büdcə gəlirlərini yeni mənbələrlə təmin edir. Bu siyasət, eyni zamanda, bütövlükdə yeni iqtisadi artım mənbələrinin yaranmasına, dayanıqlı iqtisadiyyatın formalaşmasına gətirib çıxarmaqdadır. İdxaldan asılılığı azaltmaq da xarici bazarlarda baş verən hadisələrin ölkə iqtisadiyyatına təsirini minimallaşdırır və daxili istehsalı stimullaşdırır. Bu, həmçinin, yeni iş yerlərinin açılması və əhalinin həyat tərzinin yüksəldilməsinə ciddi dəstəkdir. Qeyri-neft ixracının artması isə ölkəyə valyuta axınını təmin etməklə büdcəyə bu sahədən gələn vergi gəlirlərinin çoxalmasına xidmət edir və bu da son nəticədə əhalinin sosial təminatının daha da gücləndirilməsinə yeni imkanlar açır.

***- Dövlət büdcəsinin layihəsində növbəti dəyişikliklər nəzərdə tutulur. Sizcə, bu dəyişikliklər zamanı daha çox hansı məsələlər nəzərə alınacaq?***

- Azərbaycanın son illər büdcə zərfində sosialyönümlü xərclərin prioritetliyi bu sahəyə dövlətin diqqətini bir daha təsdiqləyir. Həmin siyasətin real nəticələri insanların gündəlik həyatında öz təcəssümünü tapır. Sosial sahəyə diqqətin ildən-ilə artırılması ölkə vətəndaşlarının rifah halının yüksəlməsinə səbəb olur. Bu məsələ ilə bağlı Milli Məclisdə müzakirələrə hələ başlanılmasa da, ümid edirik ki, dəyişikliklər ölkə əhalisinin ürəyincə olacaq.

***- Biznesin fəaliyyətinin asanlaşdırılması istiqamətində növbəti yeniliklər gözlənilirmi?***

- Rəqabətli bazar mühitində biznesin inkişaf strategiyası müasir sahibkarlığın əsas tərkib hissəsi sayılır. Azərbaycan dövləti də bu sahədə sahibkarlara daim öz dəstək layihələri ilə kömək edir. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması və ya bu tədbirlərin sayının azaldılması iş adamlarına öz fəaliyyətlərini tam planlaşdırmağa, ən əsası, özəl sektorun genişlənməsinə imkan yaradır. Dövlət başçısının «Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında» fərmanı bu istiqamətdə atılan çox dəyərli bir addımdır.

Azərbaycanda özəl bölmənin inkişafına dövlət dəstəyinin növbəti təzahürü olan son islahatlar, qəbul olunmuş mühüm qərarlar, imzalanmış sənədlər sahibkarlığın inkişafında kifayət qədər müsbət dəyişikliklərə gətirib çıxaracaq, iş adamları ilə dövlət qurumları arasında birbaşa ünsiyyətin azaldılmasına və yersiz müdaxilələrin tam aradan qaldırılmasına səbəb olacaq. Əlbəttə ki, bu sahədə islahatlar bundan sonra da davam etdiriləcək. Maliyyə əlçatanlığının təmin edilməsi üçün yeni yaradılmış qurumların fəaliyyəti bu il daha da aktivləşəcək. Vergi Məcəlləsinə yeni və innovativ dəyişikliklərin edilməsi planlaşdırılır. Dövlətin kənd təsərrüfatı sahəsində sahibkarlar üçün dəstək mexanizmlərinin yeni formalarının tətbiq olunması planlaşdırılır. Elmi tədqiqat mərkəzləri və biznes subyektləri arasında müntəzəm əlaqələrin yaradılması üçün müxtəlif mexanizmlər düşünülür. Bütün bu tədbirlər son nəticədə sahibkarların öz fəaliyyətlərini daha da gücləndirmələrinə səbəb olacaqdır.

***- Ölkəmizdə aparılan vergi islahatları ilə bağlı fikrinizi bilmək maraqlı olardı... Vergi qanunvericiliyində nəzərdə tutulan dəyişikliklərin müzakirəsi zamanı daha çox hansı məsələlərin nəzərə alınmasını təklif edərdiniz?***

- Azərbaycanda dinamik iqtisadi inkişafın təmin edilməsi yeni tipli büdcə-vergi siyasətinin həyata keçirilməsinə tələbat yaradır. Hazırda Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı müxtəlif yanaşmalar mövcuddur. Düşünürəm ki, daha kompakt və sadə, hazırkı dövrün tələblərinə tam cavab verən, müasir iqtisadi-innovativ fəaliyyətləri özündə ehtiva edən vergi qanunvericiliyinin işlənib hazırlanmasına ehtiyac var. Bu gün vergi sahəsində aparılan islahatlar sahibkarları da, yaxşı mənada, xeyli hərəkətə gətirib. İnanıram ki, yaxın vaxtlarda həyata keçiriləcək yeni islahatların qanunvericilik aktlarında əks olunması iqtisadi inkişafa əlavə stimul verəcəkdir...

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# Müraciətlərə həssas yanaşma vətəndaş məmnunluğunu təmin edir

«Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir».

Azərbaycan Respublikası Konstitusiyası

Vergilər Nazirliyi vergi ödəyicilərinin müraciətlərini daim diqqət mərkəzində saxlayır, hər bir müraciəti fərdi yanaşma prinsipi əsasında diqqətlə araşdırır. Vətəndaşların və vergi ödəyicilərinin qanuni tələblərinin həlli üçün konkret tədbirlər görülür, qaldırılan məsələlərlə bağlı müvafiq izahatlar verilir. Vergi ödəyicilərinin vergi qanunvericiliyi və onun tətbiqi, nazirliyin təqdim etdiyi elektron xidmətlər barədə vergi orqanlarına gəlmədən operativ, düzgün məlumat almalarını, qanunvericiliyin pozulması halları barədə müraciətlərin qəbulunu təmin etmək məqsədilə respublikanın bütün regionlarını əhatə edən «195-1» Çağrı Mərkəzi fəaliyyət göstərir.

Vergilər Nazirliyinin rəsmi internet saytında «Onlayn kargüzarlıq» sistemi tətbiq olunur. Ölkə vətəndaşları bütün müraciətlərini vergi orqanına kompüter və ya mobil telefon vasitəsilə internet üzərindən də göndərə bilirlər. Müraciət edən şəxs vergi orqanına göndərdiyi məktubların vergi orqanı daxilində hərəkətini onlayn rejimdə izləyə və icraçı ilə birbaşa əlaqə yarada bilər. Bu sahədə şəffaflığın daha da artırılması məqsədilə rəsmi internet səhifəsində «Vergilər nazirinə onlayn müraciət», «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi», «Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi», «Vergi Apelyasiya Şurasına müraciətin onlayn təqdim edilməsi» imkanları yaradılıb. Vətəndaş müraciətlərinə baxılması ilə əlaqədar vergi orqanlarında müasir texnoloji avadanlıqlarla təchiz edilmiş qəbul otaqları yaradılıb.

Vergi Məcəlləsinin müvafiq müddəalarına uyğun olaraq, vergi ödəyiciləri tərəfindən vergi orqanlarının qərarlarından (aktlarından) və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətlərin verilməsi və vergi orqanları tərəfindən həmin şikayətlərə baxılması qaydaları tənzimlənir. Vergilər Nazirliyində fəaliyyət göstərən Apelyasiya Şurası vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, onların təkrar şikayətlərinə qanunvericiliklə müəyyən edilmiş qaydada baxılması, habelə məhkəməyə qədər sadələşdirilmiş prosedurlara əməl olunmaqla mübahisələrin obyektiv şəkildə həll edilməsi istiqamətində əvəzedilməz rol oynayır. Vergi orqanlarının qəbul etdiyi inzibati aktlarla bağlı vergi ödəyiciləri tərəfindən verilmiş ərizə və ya şikayətlərin nəticəsi üzrə nazirliyin ayrı-ayrı struktur vahidləri tərəfindən qəbul edilmiş inzibati qərarlardan həmin vergi ödəyiciləri narazı olduqda, bununla bağlı Şuraya təkrar şikayətlə müraciət edə bilərlər. Apelyasiya Şurasına ünvanlanmış müraciətlər müəyyən edilmiş formada tərtib olunmalıdır. Təkrar şikayətdə aidiyyəti qanunvericilikdə nəzərdə tutulan məlumatlarla yanaşı, aşağıdakı məlumatlar göstərilməlidir:

- təkrar şikayətlə müraciət edən şəxs fiziki şəxs olduqda soyadı, adı, atasının adı, ünvanı, VÖEN-i, hüquqi şəxs olduqda isə adı, hüquqi ünvanı, VÖEN-i;
- təkrar şikayətin predmeti üzrə bundan əvvəl Vergilər Nazirliyi Aparatının müvafiq struktur vahidinə edilmiş müraciət (müraciətlər) və alınmış cavab (cavablar) barədə məlumatlar;
- təkrar şikayətin predmeti üzrə bundan əvvəl Vergilər Nazirliyi Aparatının müvafiq struktur vahidinə müraciətin (müraciətlərin) edilməsinə səbəb olan hal barədə məlumatlar (müvafiq vergi orqanının qəbul etdiyi inzibati aktın adı, tarixi, nömrəsi, qısa məzmunu);
- təkrar şikayətlə müraciət edən şəxsin tələbi və tələbin əsasları, gətirilən dəlillər;
- təkrar şikayətə əlavə edilmiş sənədlərin siyahısı.

Təkrar şikayətlərin əsaslı olmasını təsdiq edən sənədlərin (dövlət, qeyri-dövlət və yerli özünüidarəetmə orqanlarından alınmış qərar, akt, rəy, məktub, arayış, qəbz və digər sənədlərin) müvafiq qaydada təsdiq olunmuş surətləri təkrar şikayətlərə əlavə edilir.

Bununla yanaşı, vergi ödəyiciləri Apelyasiya Şurasına internet səhifəsindən də elektron formada müraciət edə bilərlər. Məhkəmənin və ya Şuranın eyni predmet üzrə qəbul edilmiş qərarlarından (verilmiş yazılı cavablarından) Apelyasiya Şurasına yenidən müraciət edildikdə, həmin müraciət baxılmamış saxlanılır. Şəxs eyni qərardan (eyni predmet üzrə) Vergilər Nazirliyinin Apelyasiya Şurasına təkrar şikayət etməklə yanaşı, məhkəməyə şikayət etdikdə (iddia ərizəsi təqdim etdikdə), şikayətə məhkəmə qaydasında baxılır və həmin şikayət üzrə başlanılmış icraata xitam verilir.

Bütün bu prosedurlar Vergilər Nazirliyində vətəndaş müraciətlərinin obyektiv və vaxtında araşdırılaraq ətraflı cavablandırılması işinin günü-gündən daha da yaxşılaşmasından, vətəndaş məmnunluğunun və qanunvericiliyin bütün tələblərinin təmin olunmasından xəbər verir.

**R. SADIQOV**

# Prosedurların sadələşdirilməsi işgüzar mühitdə fəallığı artırır

Bu gün Azərbaycanda sahibkarlıq fəaliyyətinə başlamaq, biznes qurmaq üçün heç bir məhdudiyyət yoxdur. Biznesə başlama prosedurlarının sadələşdirilməsi iş adamlarına, vergi ödəyicilərinə yeni-yeni şirkətlər qurmağa imkan yaradır. Biznesə başlama ilə bağlı prosedurların sayı 2-yə endirilib. Ölkəmizdə fərdi sahibkarlar Vergilər Nazirliyi tərəfindən 2011-ci, yerli müəssisələr isə 2012-ci ildən elektron qaydada qeydiyyata alınırlar. O vaxtdan fiziki şəxslər yaşadıqları yer üzrə vergi orqanlarına Vergilər Nazirliyinin internet səhifəsinin «Bir pəncərə» bölməsinin «Lazımi sənədlər»in «Ərizə və arayış formaları» hissəsində yerləşdirilən «Fiziki şəxsin vergi uçotu haqqında ərizə» verməklə vergi ödəyicisi kimi uçota alınırlar.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini fiziki şəxs kimi həyata keçirmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilən vəsiqə əsasında vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınırlar. Vergi orqanı fiziki şəxsin vergi ödəyicisi kimi uçotunu sənədlər daxil olduğu gündən sonrakı gün müddətində ödənişsiz həyata keçirir və vergi ödəyicisinə müvafiq şəhadətnamə verir.

### Bütün suallar onlayn rejimdə cavablandırılır

Vətəndaşlar vergi orqanlarında elektron formada uçota alınmaq üçün Vergilər Nazirliyinin internet səhifəsinin «Xidmətlər» bölməsinin «E-xidmətlər» bölməsindən istifadə edərək uçota alına bilirlər. Uçota alınma, yenidən uçota alınma, uçotdan çıxarılma ödənişsiz həyata keçirilir. Vergilər Nazirliyi tərəfindən qeydiyyatla bağlı inzibati reqlamentlər, ərizə formaları və onların doldurulma qaydaları, təşkilati-hüquqi formasından asılı olaraq kommersiya qurumlarının nizamnamə və qərar formaları və s. hazırlanıb, hər kəsin istifadə edə bilməsi üçün nazirliyin rəsmi internet saytında yerləşdirilib. Bundan başqa, vergi əməkdaşları iş günü ərzində xidməti telefon və elektron poçt vasitəsilə müraciət etmiş şəxslərə geniş məlumatlar verərək onları maraqlandıran bütün suallara ətraflı cavab verirlər.

Dövlət qeydiyyatı və uçotun təşkili şöbələrində hüquqi şəxsin adının unikallığının yoxlanılması üçün vətəndaşların özlərinin sərbəst istifadə etməsinə imkan verən xüsusi məlumat köşkləri quraşdırılıb. Qeydiyyat zalının divarında quraşdırılmış stendlərdə müraciət ərizələrinin nümunəvi formaları və onların doldurulma qaydaları, müxtəlif vergi növləri barədə bukletlər yerləşdirilib.

### Sahibkarlıqla məşğul olmaq istəyənlərin sayı artır

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu il aprelin 1-nə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 804 minə yaxınlaşıb. Hər altı fərdi sahibkardan beşi «Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq», «Ticarət; nəqliyyat vasitələrinin təmiri», «Digər sahələrdə xidmətlərin göstərilməsi» və «Nəqliyyat və anbar təsərrüfatı» sahələri üzrə qeydiyyatdan keçib. Fərdi sahibkarların əsas hissəsi Bakıda (29,8 faiz), Aran (20,7 faiz), Gəncə-Qazax (14,0 faiz), Lənkəran (10,1 faiz) və digər iqtisadi rayonlarda qeydiyyata alınıb. Fərdi sahibkarların 78,5 faizi kişilər, 21,5 faizi isə qadınlardır. Qadınlar «Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq» fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 27,0 faizini, «Digər sahələrdə xidmətlərin göstərilməsi» fəaliyyət sahəsində 25,6 faizini, «Ticarət; nəqliyyat vasitələrinin təmiri» fəaliyyət sahəsində isə 20,7 faizini təşkil edir. Sahibkar qadınların 31,7 faizi Bakıda, 17,6 faizi Aran, 17 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Fərdi sahibkarların regionlar üzrə say bölgüsündən aydın olur ki, Bakıda (22,8 faiz), Gəncə-Qazax (26,0 faiz) və Lənkəran (22,5 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlər nəticəsində 2003-2017-ci illərdə ölkəmizin sahibkarlıq subyektlərinin sayı 4,2, hüquqi şəxslərin sayı 1,9, kiçik müəssisələrin sayı 2, fərdi sahibkarların sayı isə 5 dəfə artıb. Bu müddət ərzində ölkə iqtisadiyyatına cəlb olunan xarici investisiyanın həcmi 2,6 dəfədən çox artıb. İnvestisiyaların təşviqi mexanizminin tətbiqi nəticəsində 2017-ci ilin may ayından 2018-ci ilin fevral ayının əvvəllərinədək 244 investisiya layihəsinə təşviq mexanizmi tətbiq olunub, 2,1 mlrd. manatlıq investisiyanın cəlb edilməsinə və 16 mindən çox yeni iş yerinin açılmasına şərait yaranıb.

Gələcəkdə bu işlərin davam etdirilməsi və biznes mühitinin əlverişliliyinin artırılması hökumətin əsas prioritetlərindən olacaq. «Azərbaycan Respublikasının milli iqtisadiyyatın perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə əlverişli biznes mühitinin inkişaf etdirilməsi və səmərəli vergi sisteminin təşviqi başlıca məqsəd kimi müəyyənləşib. Yeni strateji siyasət şəffaflığı artırmaq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatların davam etdirilməsini nəzərdə tutur. Müəyyənləşdirilmiş hədəflərə doğru irəliləmək məqsədilə digər ölkələrdə şirkətlərin vergi yükü və bütün əməliyyatlar üçün dəyər zənciri boyunca vergilər nəzərə alınaraq, ədalətli vergi səviyyəsi qiymətləndirilməkdədir. Sahibkarlıq subyektlərinə lazım olan maliyyə öhdəliyinin proqnozlaşdırılması üçün ölkənin vergi öhdəliklərinin aydın müəyyənləşdirilməsi və proqnozlaşdırılması sahəsində mümkün islahatlar təhlil edilir, vergi əməletməsi xərclərinin azaldılması təşəbbüsləri nəzərdən keçirilir.

**RƏŞAD**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlak vergisi

***Azərbaycan Respublikasının Milli Qəhrəmanı adını almış şəxsin mülkiyyətində olan yaşayış sahəsinə görə əmlak vergisi hansı qaydada hesablanır və ödənilir?***

Vergi Məcəlləsinin 197.1.1-ci maddəsinin müddəalarına əsasən, rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri əmlak vergisinin vergitutma obyektidir.

Vergi Məcəlləsinin 198.1.1-ci maddəsinin müddəalarına görə, fiziki şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə bina Bakı şəhərində yerləşdikdə 0,4 manat və həmin dərəcələrə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq edilməklə hesablanır.

Vergi Məcəlləsinin 199.3-cü maddəsində qeyd edilmişdir ki, binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, həmin Məcəllənin 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır.

Bunlarla yanaşı, Vergi Məcəlləsinin 4.4-cü maddəsinin müddəalarına görə, yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit olunmuş hədlər daxilində müəyyən edilir. Vergi qanunvericiliyinə uyğun olaraq, bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul etmək hüququna malikdirlər. Vergi Məcəlləsinin 200.4-cü maddəsinə uyğun olaraq, bələdiyyələr əmlak vergisinin ödənilməsi barədə tədiyyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər.

Vergi Məcəlləsinin 200.5-ci maddəsində göstərilmişdir ki, cari il üçün əmlak vergisinin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən ödənilir.

Vergi Məcəlləsinin 200.6-cı maddəsinə görə fiziki şəxslərdən əmlak vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir. «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» 2001-ci il 27 dekabr tarixli 244-IIQ nömrəli Qanunun 11.4-cü maddəsinə əsasən, yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. Bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması qadağandır.

**Qeyd olunanlara əsasən:**

Azərbaycan Respublikasının Milli Qəhrəmanı adını almış şəxsin mülkiyyətində olan yaşayış sahəsinə görə əmlak vergisi onun yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən yaşayış sahəsinin 30 kvadratmetrdən artıq olan hissəsinin hər kvadratmetrinə görə Vergi Məcəlləsi ilə müəyyən edilmiş dərəcələrlə hesablanır və verginin ödənilməsi barədə tədiyyə bildirişi fiziki şəxslərə çatdırılır. Hesablanmış əmlak vergisinin məbləği fiziki şəxslər tərəfindən banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələrindən istifadə edilməklə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilməlidir.

Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, Azərbaycan Respublikasının milli qəhrəmanı adı almış şəxslərin binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

## Azərbaycan Xalq Cümhuriyyəti - 100

# Cümhuriyyətin neft sənayesi strategiyası

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycanda yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.

Heydər ƏLİYEV

Azərbaycan Xalq Cümhuriyyəti dövründə neft sənayesi iqtisadiyyatın öncül sahəsi olduğu üçün ölkə parlamenti və hökumət neft hasilatı və emalının mövcud durumunu vaxtaşırı təhlil edir, dünya neft bazarında baş verən hadisələri ciddi araşdırırdı.

Cümhuriyyətin yaradıcıları dərk edirdilər ki, təbii sərvət iqtisadi inkişaf üçün maddi baza rolunu oynasa da, ölkənin gələcək inkişafının məhz bu amildən asılılığı ciddi proplemlərə gətirib çıxara bilər. Lakin o dövrdə ölkə iqtisadiyyatının bütünlüklə neftin ixracına bağlı olması, nəyin bahasına olursa-olsun, bu sahənin dirçəldilməsini zəruri edirdi. Vəziyyət isə heç də ürəkaçan deyildi: neftin əsas istehlakçısı olan Rusiyada vətəndaş müharibəsi başlandığı üçün Azərbaycanın bu bazarı bağlanmış, ixrac sürətlə azalmış, nəticədə «qara qızıl»ın qiyməti son dərəcə aşağı düşmüşdü. Belə bir şəraitdə iqtisadiyyatı bərpa etmək, əhalinin sosial rifahını yaxşılaşdırmaq üçün hökumət, böyük çətinliklərə baxmayaraq, neft sənayesinin inkişafına xüsusi diqqət yetirirdi...

1918-ci il oktyabrın 5-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti neft sənayesinin milliləşdirilməsi haqqında verdiyi xüsusi dekretlə bütünlüklə neft modemlərini, Xəzər ticarət donanmasını, gəmiləri, zavodları, emalatxanaları neft sahibkarlarına qaytardı, istehsal edilmiş neftin üçdə iki hissəsini onlara verdi, qalan hissəsini isə öz sərəncamında saxladı. Həmin dekretlə Azərbaycan neftinin Rusiyaya daşınması da qadağan olunurdu. Beləliklə, həyata keçirilən ciddi tədbirlər nəticəsində 1919-cu ildə ölkənin neft ehtiyatı üç dəfə artaraq, 1920-ci ilin əvvəlində 300 milyon puda çatdı. Yaranmış əlverişli vəziyyət hökumətə qonşu dövlətlərlə sərbəst neft ticarəti aparmağa imkan verdi. Neft sənayesinin sabitləşdirilməsi və inkişaf etdirilməsində hökumətin 1919-cu ildə elan etdiyi dekret xüsusi əhəmiyyət kəsb edirdi. Həmin dekretdə neft sənayesi üzərində dövlət nəzarətinin tətbiq edilməsi, neft və neft məhsullarının Gürcüstanın Batumi dəniz limanına daşınması və satılması, mal mübadiləsinə icazə verilməsi ilə bağlı müddəalar təsbit edilmişdi.

Neft sənayesinin sürətli inkişafını təmin etmək üçün infrastrukturun təkmilləşdirilməsi tələb olunurdu. Yeni istehsal sahələrinin yaradılması, əlavə quyuların qazılaraq istifadəyə verilməsi, hasilatın artırılması zəruri idi. Bütün bu işlər neftçıxarma və neft emalı sənayesinə xidmət edən maşınqayırma və təmir müəssisələrinin təşkilindən başlandı. Görülən tədbirlər çərçivəsində neftçıxarma, neft emalı, neft avadanlıqlarının təmiri və istehsalına xüsusi fikir verilirdi. Neft mərkəzi hesab edilən Bakı şəhərində əhalinin tələbatını ödəmək məqsədilə yüngül, yeyinti sənayesinin, yükdaşıma və şəhər nəqliyyatı təsərrüfatlarının inkişafı xeyli sürətləndirildi. 1918-ci ildə Bakıda mövcud olan 165 müstəqil neft firmasının özünəməxsus mədənləri, neft emal edən zavodları, boru kəmərləri və anbarları var idi. Neft sənayesinin inkişafı ilə əlaqədar olaraq artmaqda olan idxal-ixrac əməliyyatları və ödənişləri tənzimləmək üçün 1919-cu il sentyabrın 30-da Bakıda Azərbaycan Dövlət Bankı yaradıldı və kredit bankları fəaliyyətə başladı.

Azərbaycan parlamentinin üzvləri: (ortada) Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Sovetinin sədri F.Xoyski və Azərbaycan parlamentitn sədr müavini H.Ağayev



1918-ci ildə Azərbaycanda neft emalının həcmi təxminən 200 min tona endiyindən xaricə neft, əsasən, xammal şəklində ixrac edilirdi. Bu dövrdə Bakının neft təsərrüfatında fəaliyyət göstərən şirkətlər müxtəlif transmilli korporasiyalarda birləşdilər: neft emalı, kimya və neftin ixracı ilə Nobel qardaşları məşğul olurdular; neftin hasilatı, emalı və ixracını Rusiyanın neft şirkəti həyata keçirirdi; neft hasilatı, neftayırma sahələrinin avadanlıqlarla təchizatını ingilis-holland «Şell» tresti yerinə yetirildi. 1920-ci ilin yazında Azərbaycanda hasil edilmiş neft ehtiyatları artıq 300 milyon puda çatdırıldı.

Həmin dövrdə gənc respublikanın dünya ölkələri tərəfindən tanınması, müstəqilliyinin möhkəmləndirilməsi, sosial və iqtisadi inkişafının təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi təxirəsalınmaz strateji vəzifələr kimi xüsusi önəm daşıyırdı. Bu vəzifələrin qısa müddətdə həyata keçirilməsi üçün Azərbaycan Gürcüstan, Türkiyə, İtaliya və Amerika ilə iqtisadi-ticarət əlaqələri yaradır, nağd pul və barter üsulu ilə özünə lazım olan ərzaq məhsulları, hərbi texnika, sənaye və aqrar bölmə üçün müasir avadanlıqları alıb ölkəyə gətirirdi. Fransa və İtaliya ilə aparılan danışıqlar nəticəsində neft məhsulları mübadiləsi yolu ilə ilk dəfə olaraq ölkəyə yüz parovoz, 2000 sistern, 500 vaqon, 1,5 milyon pud buğda və 1 milyon pud şəkər idxal edildi. Azərbaycanın iqtisadi-ticarət əlaqələri yaratdığı ölkələr arasında Gürcüstan və İtaliya mühüm yer tuturdu.

Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlətçilik ənənələri ilə yanaşı, onun neft siyasəti sahəsindəki addımları müasir Azərbaycan üçün də maraqlıdır. Ulu öndərimiz Heydər Əliyev demişdir: «Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır».



Bakı şəhərində neft mədənləri



Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Avropaya təhsil almağa göndərilən tələbələr

**ÜLKƏR**

# Yeni əskinasların maliyyə-pul siyasətinə təsirləri...

Mərkəzi Bank Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar dövriyyəyə yeni pul banknotu - 200 manatlıq əskinasları dövriyyəyə buraxıb.

Yeni pul nişanının dizaynını ABŞ-ın «Crane Currency» şirkəti hazırlayıb. Dizayna bir sıra şirkətlərin təqdim etdiyi mühafizə sistemləri inteqrasiya edilməklə pul nişanı «Giesecke+Devrient» şirkətində istehsal olunub. Əskinasın üzərində Heydər Əliyev Mərkəzinin təsviri, mərkəzin əsas eksteryer və interyerinin dizayn elementləri, milli xalça nümunələrinin elementləri, digər milli ornamentlər əks olunub. Yeni kağız manatlar gələn aydan pul bazarında tədavülə buraxılacaq.

Mərkəzi Bankın (MB) İdarə Heyətinin sədri Elman Rüstəmov yeni pul nişanlarının təqdimat mərasimində bildirib ki, hökumət nağd pul sferasında müasir çağırışları nəzərə alaraq pul nişanlarımızın mühafizə sistemlərinin müasirləşməsini daim diqqət mərkəzində saxlayır. Milli valyutanın nominal strukturu tələblərə uyğun qaydada və milli strategiyaya əsasən zəruri olduğu iqtisadi şəraitdə dəyişdirilir. Hazırda ölkə iqtisadiyyatının dinamik inkişafı, dövriyyədə olan nağd pulun strukturunda baş verən dəyişiklikləri nəzərə alaraq, eləcə də nağd pul sferasında səmərəliliyin yüksəldilməsinin təmin edilməsi məqsədilə yeni 200 manatlıq pul nişanının tədavülə buraxılması qərara alınıb.

Bəs yeni əskinasların emissiyası pul bazarında və maliyyə sektorunda hansı dəyişikliklərə səbəb ola bilir? Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədovun sözlərinə görə, iri nominala malik banknotların buraxılması iqtisadiyyatda baş verən dəyişikliklərin və maliyyə-pul siyasətinin tələblərinə uyğun olaraq tədavülə çıxarılır. Hesablaşmalarda daha iri nominalların istifadəsi hazırkı iqtisadi reallığa uyğundur. Yeni əskinasların inflyasiya və devalvasiya faktorunda roluna gəlincə, millət vəkili narahatlığa əsas görmür: «Hazırda ölkənin güclü maliyyə sistemi mövcuddur, yüksək neft qiymətləri və idxal-ixrac əməliyyatlarında əldə olunan müsbət saldo milli valyutanın sabit dəyərinin saxlanmasında mühüm rol oynayır. Bu və digər makroamillər manatın devalvasiyasından danışmağa əsas vermir».

V.Əhmədov qeyd edib ki, Mərkəzi Bank pul kütləsinə lazımi səviyyədə nəzarət mexanizmi həyata keçirdiyi üçün pul bazasının artması gözlənilmir. Bu addım bazarda əlavə qiymət artımına milli valyutanın alıcılıq qabiliyyətinin azalmasına təsir göstərməyəcək.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov isə MB-nın qərarını şərh edərkən bildirib ki, yeni pul əskinaslarının dövriyyəyə buraxılması tədavül prosesinin asanlaşmasına və yığımların optimallaşdırılmasına səbəb olacaq. Hazırda nağd hesablaşmalarda daha çox xırda əskinasların azlığının müşahidə edildiyini deyən iqtisadçı onların da sayının artırılmasını məqsədəuyğun hesab edir.







Maliyyə sahəsi üzrə mütəxəssis Royal Osmanlı hesab edir ki, Azərbaycan hökuməti nağdsız hesablaşmaların stimullaşdırılmasını prioritet vəzifələrdən biri hesab edir və həmin strategiya pul siyasətinin tənzimlənməsi çərçivəsində digər hədəflərə uyğun həyata keçirilir: «Nağdsız hesablaşmalar sektoru ilə pul nominalları fərqli sahələrdir. İri nominallı əskinasların dövriyyəyə buraxılması nağd hesablaşmalar çərçivəsində aparılan pul əməliyyatlarına aiddir. Nağdsız hesablaşmalar pulun nominal dəyərinin iri və yaxud kiçik olmasından asılı deyil, bu sahə elektron ödənişlər sisteminin tərkib hissəsinə aiddir. Nağdsız cəmiyyətdə vətəndaşlar kart hesablarındakı vəsaitin dəyərinə uyğun olaraq müxtəlif ödəniş alətləri, rəqəmsal texnologiyalar vasitəsilə ödəmələr həyata keçirirlər. Həmin ödəmələr zamanı isə hesabdakı vəsait nağd ödənilmədiyindən, burada məbləğin iri və ya kiçik olması rol oynamır.

> Hökumət nağd pul sferasında müasir çağırışları nəzərə alaraq pul nişanlarımızın mühafizə sistemlərinin müasirləşməsini daim diqqət mərkəzində saxlayır

**ELBRUS**

# Vergilər Nazirliyinin nümayəndələri Cocuq Mərcanlıda...

**May ayının 25-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd orta məktəbində Vergilər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Vergilər Nazirliyinin, Cəbrayıl Rayon İcra Hakimiyyətinin və Cocuq Mərcanlı kənd bələdiyyəsinin nümayəndələri, məktəbin pedaqoji heyəti və şagirdlər iştirak ediblər.**



Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri Ələkbər Məmmədov şagirdlərə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadi siyasəti və vergi idarəçiliyi barədə məlumat verib, Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti barədə danışıb. Məktəblilərə, həmçinin, müasir Azərbaycanın vergi sistemi, dövlət büdcəsi və onun mahiyyəti haqqında da bilgi verilib. Vergilər Nazirliyinin əməkdaşları məktəblilərlə bütün bir gün keçirib, onların təhsili və yaşadıqları şəraitlə tanış olublar, məktəbə Azərbaycan Xalq Cümhuriyyəti haqqında kitablar və digər hədiyyələr təqdim ediblər.

Xatırladaq ki, Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması 2016-cı il aprel döyüşlərində bu əraziyə yaxın yüksəkliklərin erməni silahlı qüvvələrinin işğalından azad edilməsindən sonra mümkün olub.

# «Vergi» bilik yarışının qalibləri müəyyən edildi

May ayının 29-da «Park İNN» hotelində Vergilər və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş SABAH tələbələri arasında «Vergi» bilik yarışı keçirilib.




Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri Elçin Məmmədov iştirakçıları salamlayaraq onları Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbrik edib. Bildirilib ki, maarifçiliyi öz fəaliyyətinin tərkib hissəsi kimi qəbul edən Cümhuriyyət hökumətinin yubileyi münasibətilə belə bir bilik yarışının təşkil olunması çox sevindiricidir. Cəmi 23 ay yaşamasına baxmayaraq, Şərqin ilk demokratik respublikası elmin, təhsilin inkişafına böyük töhfələr verib. Cümhuriyyət dövrünün maarifçilik siyasəti müasir Azərbaycanda da uğurla davam etdirilir.

Qeyd edilib ki, Vergilər Nazirliyi sosial məsuliyyət strategiyası çərçivəsində cəmiyyətin maarifləndirilməsinə öz töhfəsini verir və bu baxımdan, təhsil müəssisələri ilə əməkdaşlıq xüsusi önəm kəsb edir. Ölkəmizdə işəgötürənlərlə təhsil alanlar arasında effektiv əlaqənin qurulması istiqamətində Vergilər Nazirliyi ilə Təhsil Nazirliyi və SABAH qrupları səmərəli əməkdaşlıq edirlər. Bu əməkdaşlıq çərçivəsində keçirilən bilik yarışı da tələbələrə növbəti töhfədir. Vurğulanıb ki, bilik yarışları tələbələrin tədris dövründə şəxsi və peşəkar inkişafında, təlim və peşə hazırlığı üzrə biliklərinin dərinləşməsində və möhkəmlənməsində mühüm rola malikdir.

Tədbirdə çıxış edən Təhsil Nazirliyinin nümayəndəsi bildirib ki, SABAH tələbələri üçün mütəmadi olaraq müxtəlif tədris və tədrisdənkənar fəaliyyətlər təşkil edilir, tələbələrin inkişafına dəstək verilir. Qeyd edib ki, ölkəmizdə gənc insan kapitalının inkişafı üçün 2 aparıcı dövlət qurumunun bu cür tədbirlər fonunda birgə əməkdaşlığı nümunəvi haldır və bunun davamlı olacağına inanırıq. Azərbaycan Respublikası Vergilər Nazirliyi ilə Təhsil Nazirliyi arasında bağlanmış əməkdaşlıq memorandumu çərçivəsində SABAH tələbələrinə vergi strukturlarında təcrübə, işə qəbul, birgə elmi tədqiqatların aparılması və s. kimi geniş imkanlar yaradılır.

Bilik yarışına ümumilikdə 10 ali təhsil müəssisəsini təmsil edən komandalar qatılıb. İlk 3 komanda yarışın qalibi olub. Bakı Dövlət Universitetini təmsil edən komanda 1-ci yer, Azəbaycan Dövlət Neft və Sənaye Universitetini təmsil edən komanda 2-ci yer, Azərbaycan Memarlıq və İnşaat Universitetini təmsil edən komanda isə 3-cü yeri tutub.

---

Bakı Dövlət Universitetinin tələbəsi Sahib Həsənzadə: «Yarışda çox güclü komandalar var idi. Ümumi səviyyə nəzərə alınmaqla gözəl suallar qoyulmuşdu. Hazırlığımız yetərincə idi, komanda üzvlərinə güvənirdim. Məlumatlılığımız, müxtəlif sferalar üzrə biliklərə yiyələnmə marağımız sonda qalibiyyəti gətirdi».

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbəsi Səid Canıyev: «Şərqdə ilk müstəqil dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə yarışların keçirilməsini və biz gənclərin bir yerə toplanmasını çox müsbət qiymətləndiririk. Bütün təşkilatçılara minnətdarlığımızı bildiririk».

Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbəsi Xəyal Xudiyev: «Suallar gözlədiklərimizdən daha asan idi. Bəzi səhvlərimiz ucbatından, bir-birimizlə yaxşı koordinasiya qura bilmədiyimizdən 3-cü olduq. Növbəti yarışlarda daha yüksək yerləri əldə edəcəyimizə inanırıq».

Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Adil Talıbov: «Belə yarışların davamlı keçirilməsi tələbələrin fənləri daha dərindən və həvəslə mənimsəməsinə ciddi təsir göstərir».

Bakı Mühəndislik Universitetinin tələbəsi Rəşad Yusifov: «Belə yarışlarda iştirak etdikcə dünyagörüşümüz daha da artır. Qalib olmasaq da bilmədiklərimizi öyrəndik, yeni biliklər əldə etdik. Növbəti yarışlarda qalib olmaq arzusundayıq».

Azərbaycan Texniki Universitetinin tələbəsi Emil Məmmədov: «İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi üzrə təhsil alıram. Yarış çox yüksək səviyyədə təşkil olunub, suallar maraqlıdır. Biz burada rəqib deyilik, bilik uğrunda yarışan dostlarıq».

Bakı Slavyan Universitetinin tələbəsi Azadə Məlikzadə: «Qalib olmadığımıza görə heç də təəssüflənmirik. Yarışda qələbə də var, məğlubiyyət də. Qalib dostlarımızı təbrik edirəm».

Qalib komandalar serifikatlar və qiymətli hədiyyələrlə mükafatlandırıldılar.Tələbələr üçün ən dəyərli hədiyyə isə iki cilddən ibarət Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası oldu.

**Fəxriyyə İKRAMQIZI**

# Qeyri-neft ixracını təşviq edən siyasət...

2016-cı ilin aprel ayından həyata keçirilən investisiya təşviqi siyasəti öz faydasını verməkdədir. Son iki il ərzində Azərbaycan sahibkarlarına hökumət tərəfindən 271 layihə üzrə dəyəri 2 milyard manatdan artıq olan investisiya təşviqi sənədi verilib. İxrac təşviqi mexanizminin işə düşməsi sayəsində sahibkarların maliyyə imkanları yaxşılaşıb, həm yerli qeyri-neft istehsalının, həm də qeyri-neft ixracının həcmi əhəmiyyətli dərəcədə artıb, ixracqabiliyyətli yeni məhsulların istehsalı və çeşidi yüksəlib. Təkcə 2018-ci ilin yanvar-aprel aylarında xarici ticarət dövriyyəsi 8 milyard 677 milyon dollardan artıq olub, mal mübadiləsində ixracın həcmi 5,6 milyard dollar təşkil edib. İxracda qeyri-neft məhsullarının ötən ilin eyni dövrü ilə müqayisədə 10%-dən çox artıb.

Təşviq sənədi əldə etmiş sahibkarların böyük əksəriyyəti qeyri-neft məhsullarının ixracı ilə məşğul olanlardır. Kənd təsərrüfatı məhsullarının çeşidlənməsi və qablaşdırılması, qida məhsullarının xüsusi nəqliyyat vasitələri ilə daşınması, bağçılıq, bostançılıq, çayçılıq, heyvandarlıq, sənaye üsulu ilə balıq yetişdirilməsi, qida məhsullarının və içkilərin, tütün məmulatlarının, toxuculuq sənayesi məhsullarının istehsalı ilə məşğul olanlar daha çox investisiyalarla təmin olunub. Bundan başqa, kimya sənayesi, əczaçılıq məhsullarının, tikinti materiallarının, metallurgiya sənayesi, kompüter və digər elektron avadanlıqların, mebel, zərgərlik məmulatları, musiqi alətləri, idman malları və tibbi avadanlıqların istehsalı ilə məşğul olan sahibkarlar üçün təşviq sənədi çərçivəsində güzəştli investisiyalar verilib.

İnvestisiya təşviqi ilə bağlı yürüdülən siyasət yerli sərmayəçilərin regionlara investisiya qoyuluşlarının artmasını da stimullaşdırmaqdadır. İnvestisiya layihələrinin 38,1%-i Bakıətrafı qəsəbələrin və Abşeron rayonunun, 61,5%-i isə digər şəhər və rayonların payına düşür. İqtisadiyyat naziri Şahin Mustafayevin sözlərinə görə, investisiya təşviqi sənədi əldə etmiş sahibkarların həyata keçirdiyi layihələr üzrə yerli istehsala 2,5 milyard manat investisiya yatırılacaq, 18 mindən çox yeni iş yeri yaradılacaq. Ölkədə turizmin inkişafını stimullaşdırmaq məqsədilə regionlarda turizm fəaliyyəti ilə məşğul olan şəxslərə də təşviq sənədinin verilməsi təmin edilib. İndiyədək Bakı, Sumqayıt və Gəncə şəhərləri istisna olmaqla, digər şəhər və rayonlarda fəaliyyət göstərən turizm xidməti üzrə sahibkarlara 100-dən artıq investisiya təşviqi sənədi təqdim olunub.

**ELBRUS**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Prezident İlham Əliyev «Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin yaradılması haqqında» fərman imzalayıb.

ABŞ, Böyük Britaniya və Avropa Komissiyası mayın 30-31-də Bakıda keçiriləcək XXVI Beynəlxalq «Caspian Oil and Gas» sərgi-konfransında təmsil olunacaq.

Bu ilin oktyabrında dayanıqlı inkişaf məqsədlərinə həsr olunmuş Bakı Forumu keçiriləcək.

Sahibkarlara ödəniləcək gömrük rüsumunun məbləği SMS vasitəsilə bildiriləcək.

«Euronews» Bakıda keçirilən Ticarət (Shopping) Festivalı haqqında geniş süjet hazırlayıb.

Azərbaycanda kiçik və orta biznes evləri yaradılacaq.

Ölkəmizdə mövcud kredit portfelinin 60 faizdən çoxu biznes kreditləridir.

Azərbaycanlı sahibkarlar «Ukrainian Food Expo 2018» beynəlxalq sərgisinə dəvət olunublar.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Zərərli qidalara tətbiq edilən vergi sağlam cəmiyyətin qurulmasına töhfədir

**İlk dəfə 1100-cü ildə İngiltərəyə gələn şəkərin əhali arasında maraqla qarşılandığını görən Kral ailəsi ona vergi tətbiq etməkdə gecikmir. «Ağ qızıl» adlandırılan şəkər tezliklə yalnız yuxarı zümrələrin istehlak etdiyi qidaya çevrilir. Lakin istehsalın genişlənməsi, tacirlərin və xalqın təzyiqi ilə şəkər vergisi ləğv olunur.**
**2018-ci il... İngiltərə 918 ildən sonra şəkər vergisini yenidən tətbiq etməyə qərar verir. Səbəb fərqlidir - artıq çəki ilə mübarizə. Beləcə, tarix təkrarlanır...**




### Sağlam həyat üçün - «şəkər vergisi»

Dünya təcrübəsində şəkər tərkibli məhsullar və qazlı içkilərin vergiyə cəlb olunmasını təmin edən ölkələrdən biri də İngiltərədir. Bundan əvvəl Norveç, Fransa, Meksika və digər ölkələr şəkər tərkibli məhsulları vergiyə cəlb etmək barədə qərar qəbul edib. İngiltərədə «şəkər vergisi» qanunu 2016-cı ilin mart ayında qəbul edilsə də, müəyyən dəyişikliyin aparılması üçün istehsalçılara iki il möhlət verilib.

İngiltərənin səhiyyə qurumu olan «Public Health England» şəkər tərkibli məhsullara vergi tətbiq etməklə cəmiyyətin qida vərdişlərinin qaydaya salınacağını və zərərli qidalardan daha az istifadə etmələrinə nail olacaqlarını bəyan edib. Verginin tətbiq olunmasından ən böyük gözlənti xərçəng, diabet, ürək və sümük xəstəlikləri, insult, paraliz kimi ölümcül simptonları azaltmaqdır. Vurğulamaq lazımdır ki, ötən il ərzində İngiltərədə piylənmədən yaranan xəstəliklərin müalicəsi üçün 5,1 milyard funt sterlinq xərclənib.

Qida istehsalçıları öz məhsullarının reseptinə yenidən baxaraq vergi tutulan həddi aşmamaq üçün müvafiq addımlar atırlar. Britaniya Xəzinədarlığının hesablamalarına görə, istehsalçıların içkilərin tərkibindəki şəkəri azaltması sayəsində birinci il «şəkər vergisi»ndən büdcəyə 240 milyon funt sterlinq vəsait daxil olacaq. Bu göstərici əvvəlcə proqnozlaşdırılanın təxminən yarısına bərabərdir: ilkin olaraq bu vergi üzrə 520 milyon funt sterlinq vəsait yığılacağı planlaşdırılmışdı. Qeyd edək ki, İngiltərədə bu vergidən gələn vəsaitin təhsil layihələrinə yönəldilməsi planlaşdırılıb. Belə layihələrə uşaqların sağlam qidalanması və fiziki aktivliyinin artırılmasını təmin edən tədbirlərin həyata keçirilməsini nəzərdə tutan sosial təşəbbüslər daxildir.

Əvvəllər belə bir təşəbbüs Fransa, Norveç, Finlandiya, Macarıstan və Meksika tərəfindən irəli sürülüb. Vətəndaşların sağlamlığının qorunmasını hədəfləyən Fransa hökuməti 2012-ci ildə qazlı içkilərə «soda vergi»si tətbiq etməyə başlayıb. Bu səbəbdən də Fransada qazlı içkilər digərlərindən bir neçə dəfə baha qiymətə satılır. Meksikada isə 2014-cü ildə, miqdarından asılı olmayaraq, şəkərli içkilərə 10 faiz dərəcəsində vergi tətbiq edilib və bundan cəmi bir il sonra ölkədə şəkərli içkilərin satışı 12 faiz azalıb. Macarıstanda isə bu məhsullara verginin tətbiqi şəkər tərkibli içkilərin satışının 40 faiz azalması ilə nəticələnib. Şəkər tərkibli məhsullara vergi dünya ölkələrində müxtəlif formada tətbiq edilir. Məsələn, Finlandiya və Norveçdə bu vergi şokolada şamil olunur. İngiltərədə isə şokoladdakı şəkərin miqdarının 20 faiz miqdarında azaldılması üçün 2020-ci ildən sonra lazımi tədbirlərin görülməsi nəzərdə tutulur.

Bir müddət əvvəl iki mindən artıq həkim Almaniyanın kansleri Angela Merkelə, onun rəhbərlik etdiyi hökumətin nazirlərinə və ölkədəki aparıcı partiya liderlərinə açıq məktub ünvanlayıb (bu barədə qəzetimizin ötən saylarının birində oxucularımızı məlumatlandırmışdıq - red.). Məktubda bütün ölkə ərazisi üzrə şəkərdən izafi istifadənin federal səviyyədə qarşısının alınması üçün mübarizə tədbirlərinin görülməsi xahiş edilib. Həkimlər tütün məhsullarından həddindən artıq istifadənin məhdudlaşdırılması məqsədilə kompleks qanunvericilik aktlarının da qəbul olunmasını təklif ediblər. Təklifdə tütün məhsulları ilə yanaşı, şəkər də daxil olmaqla, bir sıra məhsullara (ilk növbədə, energetik içkilərə) vergilərin və aksizlərin tətbiqinin zəruriliyi, eləcə də uşaqlara ünvanlanmış reklamların qadağan olunması qeyd edilib. Məktub müəllifləri hesab edirlər ki, Almaniyada piylənmənin və diabet xəstəliyinin yayılmasının qarşısını başqa yollarla almaq mümkün deyil.

### Yoluxucu olmayan xəstəliklər - ölümün əsas səbəbi kimi...

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) spirtsiz içkilərin kalorisində şəkərin 5 faizdən çox olmaması ilə bağlı tövsiyəsində gün ərzində 6 çay qaşığından artıq miqdarda şəkər qəbul edilməməsi öz əksini tapıb. Halbuki 330 millilitrlik içkilərdə 9 çay qaşığı şəkər yer alır. İnsanların sağlamlığı baxımından ÜST də şəkər tərkibli məhsullara vergini dəstəkləyir. Çünki şəkər tərkibli məhsullara verginin tətbiqinin effektivliyi barədə bir sıra beynəlxalq təhlillər aparılıb və məlum olub ki, həmin ölkələrdə piylənmə, diabet və karies xəstəlikləri azalıb. İngilis cərrah Tomas Vakley tərəfindən hazırlanan və dünyanın ən məşhur nəşrlərindən biri sayılan Lancet NCD (non-communicable diseases) nəşri «yoluxucu olmayan xəstəliklərin son illərdə daha çox ölüm səbəbi olduğu» fikrini ortaya qoyub. Bunlar bakteriyadan qaynaqlanmayan, şəkər, un, duz, alkoqol, tütün və s. kimi sağlamlığa zərər vuran qidaların qəbulu ilə yaranan xəstəliklərdir. İlk baxışdan insanlara təhlükəsi görünməsə də bu tipli xəstəliklər 80 faiz hallarda ölümlə nəticələnir. Dünya şöhrətli Cons Hopkins Universitetinin doktoru David Peters yazdığı məqalələrin birində yoluxucu olmayan xəstəliklərin keyfiyyətsizliyə, keyfiyyətsizliyin də yoluxucu olmayan xəstəliklərə çevrildiyini və bunun davam edən proses olduğunu qeyd edib. Belə ki, yoluxucu olmayan xəstəliklər hər il dünyada 38 milyon insanın ölümünə, 16 milyon hamilə qadının uğursuz doğum etməsinə səbəb olur.

Şəkər stomatoloqları da narahat edir. İrlandiyanın nüfuzlu ictimai təşkilatı sayılan Stomatoloji Assosiasiyanın məlumatına görə, şəkərə vergi tətbiq edilməsi uşaqların karies xəstəliyindən azad olmasına ağlagəlməz dərəcədə müsbət təsir göstərəcək. Dişlərdə karies yaranmasının qarşısının alınması hərtərəfli yanaşma tələb edir. Təşkilat qazlı alkoqolsuz içkilərlə bağlı yeni qanun tətbiq olunmasından əlavə, bu içkilərin üzərində şəkərin miqdarı barədə xəbərdarlıq qeydlərinin vacibliyini dəstəkləyəcəyini də vurğulayıb. Assosiasiya bəyan edib ki, şirkətlər bu vergini tarazlaşdırmaq üçün digər ərzaq məhsullarının da qiymətini artıra bilərlər.

### Mütəxəssislər həyəcan təbili çalırlar...

Bu sahədə ixtisaslaşmış mütəxəssislərin fikrincə, son dövrlərdə şəkər tərkibli içkilər arasında insan orqanizmi üçün ən təhlükəliləri gənclər arasında getdikcə populyarlaşan energetik içkiləridir. Müxtəlif adlar altında istehsal olunan bu içkilərin zərərlilik baxımından heç birində fərq yoxdur. Qadınlar üçün istehsal olunduğu iddia edilən məhsullar da eyni dərəcədə zərərlidir. Təsadüfi deyil ki, energetik içkilərdən zərər görən xəstələr arasında qadınlar da az deyil. Mütəxəssislər bildirirlər ki, alkoqollu içkilər və siqaretlər kimi, energetik içkilərlə də bağlı reklamlar məhdudlaşdırılmalıdır. Həkimlərin sözlərinə görə, gün ərzində birdən artıq energetik içki qəbul edilərsə, insan orqanizmində problem yaranmağa başlayır. Bundan başqa, energetik içkilər çox zaman asılılıq yaradır. Xüsusən kiçik yaşlı uşaqların belə məhsullardan uzaq saxlanması vacibdir.

Qeyd edilməlidir ki, dünya ölkələri belə məhsullara vergilər tətbiq etməklə, eyni zamanda, təhsil və səhiyyə sahəsində bir sıra layihələrin maliyyələşdirilməsi üçün də mənbə əldə edirlər. Bu vergilərdən gələn gəlirlər cəmiyyətin sağlamlığının təmin edilməsinə yönəldilmiş sosial layihələrin həyata keçirilməsi, təhsil və səhiyyə müəssisələrinin tikilməsi, insanların sosial rifahını təmin edən təşəbbüslərin dəstəklənməsi baxımından əhəmiyyət daşıyır. Mütəxəssislər əmindirlər - zərərli qidalara tətbiq olunan vergi sağlam cəmiyyətin qurulmasına töhfədir...

**ÜLKƏR**

# Cümhuriyyətin 100 illiyinə həsr olunmuş fotomüsabiqə

Vergilər Nazirliyinin «Facebook» sosial şəbəkəsində daha bir fotomüsabiqəyə start verilib. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş müsabiqədə bütün vətəndaşlar iştirak edə bilərlər.

Müşabiqənin şərtlərinə görə, iştirakçılar «Azərbaycan Xalq Cümhuriyyəti» mövzusunda həcmi 1-4 Mb-dək olan kreativ foto çəkməli və info@taxes.gov.az email ünvanına göndərməlidirlər. Şərtlərə görə, bir nəfər yalnız bir foto təqdim edə bilər. Fotolarda qrafik proqram (Photoshop və s.) elementlərindən istifadə etmək olmaz. Göndərilən fotolar təşkilatçılar tərəfindən seçildikdən sonra Vergilər Nazirliyinin «İnstagram» sosial şəbəkəsindəki səhifəsində yerləşdiriləcək və müsabiqəyə təqdim olunacaq.

Səhifə istifadəçiləri tərəfindən ən çox bəyənilən 5 (beş) foto müsabiqənin sonunda münsiflər heyəti tərəfindən müəyyən ediləcək. Müsabiqədə 1-ci, 2-ci və 3-cü yerin sahibləri əsas qalib kimi müəyyən ediləcək və onlara qiymətli hədiyyələr təqdim olunacaq: 1-ci yer - Samsung Galaxy J7 smartfonu; 2-ci yer - Samsung Galaxy Tab A; 3-cü yer - Toshiba Hard Disc. Digər iki iştirakçı isə həvəsləndirici hədiyyə ilə (Samsung Power Bank) mükafatlandırılacaq.

Münsiflər heyətinin tərkibi Azərbaycan Fotoqraflar Birliyinin üzvləri və Vergilər Nazirliyinin nümayəndələrindən ibarətdir.

Mayın 31-dək davam edəcək müsabiqənin nəticələri iyunun 4-də elan olunacaq.




## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## 2018-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin may ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin iyun ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyun ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

• **Muzdlu işlə əlaqədar** 2018-ci ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin iyun ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən isə 2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

• **Xüsusi notarius**ların 2018-ci ilin may ayı üzrə hesabladığı gəlir vergisi **cari ilin iyun ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (cari ilin 2-ci rübü üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# İnvestisiya cəlbi, məhsul istehsalı, ixrac imkanı...

Azad iqtisadi zonalar mahiyyət etibarilə ölkənin digər ərazilərində tətbiq edilməyən xüsusi güzəştlər və stimullar sisteminin istifadə olunduğu məkan anlamına gəlir. Son dövrlərdə müxtəlif dövlətlər arasında xarici kapitalın cəlb edilməsi uğrunda rəqabət getdikcə artdığından, investorların cəlb olunması məqsədilə istifadə edilən müxtəlif üsul və mexanizmlərin rolu da artır. Son 25 ildə isə bu üsul və mexanizmlərdən özünü ən çox doğruldanı azad iqtisadi zonaların yaradılmasıdır.

Azərbaycanda azad iqtisadi zonaların yaradılması prosesinə 2016-cı ildən start verilmişdir. Prezident İlham Əliyevin Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında imzaladığı sərəncamın əsas məqsədi iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması, Azərbaycanın logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsi və ölkədə çoxşaxəli nəqliyyat infrastrukturunun yaradılmasıdır.

Milli Məclisin bu günlərdə keçirilən plenar iclasında «Ələt azad iqtisadi zonası haqqında» qanun layihəsi müzakirə olunaraq təsdiqlənib və hüquqi qüvvəyə minib. İqtisadçı ekspert Vüqar Bayramov mövzu ilə bağlı açıqlamasında bildirib ki, qanunda daha çox investisiyaların cəlb olunması əsas hədəf kimi nəzərdə tutulub: «Bu qanun, yeni iqtisadi zona modeli kimi, Azərbaycanın region ölkələri arasında ilk dəfə olaraq iqtisadi zonanı xüsusi qanunla tənzimləyəcək bir ölkə kimi tanınmasına xidmət göstərəcək. Bunun üstünlüyü ondan ibarətdir ki, Ələt iqtisadi zonası hasilatın pay bölgüsü statusunun yaradılmasına imkan yaradacaq, nəticə etibarilə həm investorların hüquqlarının qorunması, həm də investisiyada xüsusi güzəşt rejiminin tətbiq edilməsi baxımından fərqli bir zonaya çevriləcək. Qanun daha çox xarici investisiya cəlb etməyə imkan verəcək. Bu, Azərbaycan hökuməti tərəfindən investorlara verilən xüsusi bir güzəştdir. Əgər gələcəkdə investorlarla hər hansı dövlət qurumu arasında müəyyən anlaşılmazlıq və ya ziddiyyət yaranarsa, o zaman sözügedən qanunun şərtləri əsas götürüləcək, hətta investorlar beynəlxalq məhkəməyə müraciət etməklə öz hüquqlarını qorumaq imkanı qazanacaqlar».

V.Bayramovun qənaətincə, azad iqtisadi zonanın fəaliyyətə başlaması digər sektorlarda da aktivliyin artmasına münbit şərait yaradacaq: «İnvestisiya qoyulacaq sahələrdə işlərin intensivləşməsi nəticəsində yerli xammala ehtiyac yaranacaq, ehtiyatda olan məhsulların bir qisminin daxili bazara çıxarılması mümkün olacaq, bununla da idxaldan asılılığın aradan qaldırılması istiqamətində əhəmiyyətli rol oynayacaq».

**F.İKRAMQIZI**

beynəlxalq panoram

# Özbəkistan hökuməti aksiz dərəcəsinin artırılması ilə bağlı açıqlama verib

Ölkənin Maliyyə Nazirliyi tütün məhsullarına tətbiq edilən aksiz vergisinin dərəcəsinin artırılması və bunun nəticəsində ölkədə siqaretin qiymətinin 50 faiz artacağı ilə bağlı informasiyaları təkzib etmişdir. Nazirliyin açıqlamasında bildirilmişdir ki, 2018-ci il üçün aksiz vergisinin dərəcəsi Özbəkistan Prezidentinin 29 dekabr 2017-ci il tarixli sərəncamı ilə təsdiqlənmişdir. Aksiz markalarının dərəcəsi 2018-ci il yanvarın 1-də artırılmışdır və onun yenidən artırılacağı barədə informasiya əsassızdır.

Qeyd edək ki, bundan bir qədər əvvəl 2018-ci il büdcəsi ilə bağlı rəsmi proqnozda başqa məsələlərlə yanaşı, tütün məhsullarından və alkoqollu içkilərə tətbiq edilən aksiz markasının dərəcəsinin artırılacağı, eləcə də əmlak vergisinin azaldılacağı bildirilmişdi.

# «Airbnb» Danimarkada icarəçilərin gəliri haqqında məlumat verəcək

Gündəlik ev icarəsi üzrə ixisaslaşmış beynəlxalq «Airbnb» xidmət platforması mənzil sahiblərinin icarədən əldə etdikləri gəlirlər barədə məlumatları avtomatik şəkildə Danimarkanın vergi idarəsinə təqdim edəcək. «Airbnb» xidmətinin yerli hakimiyyət orqanları ilə imzaladıqları bu saziş ilk belə sənəddir. Razılaşma parlamentdə təsdiq edildikdən sonra qüvvəyə minəcək.

Danimarka hökuməti ilə əldə edilmiş razılıq vergiləri dövlət büdcəsinə ödəməkdən yayınma hallarının aşkara çıxarılaraq qarşısının alınmasına yönəldilmişdir. Bu addımın atılmasında başlıca səbəb «Airbnb» şirkəti ilə tənzimləyici orqanlar arasında həm sutkalıq mənzil icarəsi, həm də səfərlərin təşkili ilə bağlı fəaliyyətə dair sualların yaranmasıdır. Bu yaxınlarda mətbuatda belə məlumat yayılmışdı ki, Almaniya hökuməti şirkətin fəaliyyəti ilə bağlı yoxlama keçirməyi planlaşdırır. Bundan əlavə, «Airbnb» və digər oxşar xidmət platformaları qiymətlərin artımına şərait yaratmaqda, eləcə də Paris, Berlin, Amsterdam kimi şəhərlərdə əlçatan mənzillərin sayında qıtlıq yaratmaqda kəskin tənqid olunurlar.

Vergi orqanları ilə əldə olunmuş razılaşma çərçivəsində «Airbnb» vasitəsilə gündəlik əsasda kirayəyə götürülən evlər və mənzillər üçün günlərin sayı 70 günlə məhdudlaşdırılacaq. Bundan əlavə, mənzillərin kirayəsi üzrə vergiyə cəlb edilməyən gəlir həddi 40 min Danimarka kronu (6350 ABŞ dolları) müəyyənləşdirilmişdir. Danimarkanın vergilər nazirinin sözlərinə görə, hökumət mənzillərin gündəlik əsasda kirayəyə verilməsinə əhəmiyyət verir və icarəçilər üçün vergi tutulmayan məbləği məqbul həddə təqdim etmək istəyir. 2017-ci ildə ölkədə 30 min obyekt kirayəyə verilmiş və həmin obyektlərdə 900 mindən artıq turist qalmışdı.

# Panama transfer qiymətləndirmə üzrə yeni qaydaları təqdim edib

Son vaxtlar adı dünyada ən çox hallandırılan offşor zonalardan birinin - Panamanın ümumi gəlirlər idarəsi transfer qiymətləndirmə üzrə formanın yenilənmiş 930 nömrəli formasını təqdim etmişdir. Bu formadan əlaqədar tərəflər arasında transsərhəd əməliyyatların qiymətləri barədə məlumatın verilməsi üçün istifadə ediləcək. Yeniləşdirilmiş forma qiymətlərin hesablanmasında istifadə edilən qeyri-maddi aktivlərlə əlaqədar tranzaksiyalar haqqında, eləcə də qrupun əsas şirkətinin identifikasiyası da daxil olmaqla qrup haqqında məlumatları əks etdirməyə imkan yaradır.

Yenilənmiş forma 2018-ci ildən tətbiq olumağa başlayacaq. Hazırda qüvvədə olan ilkin versiyanın isə 2017-ci vergi ili və ondan əvvəlki illər üçün istifadəsi davam etdirilə bilər. Yeni forma müvafiq vergi ilinin sonundan sonra altı ay ərzində elektron vergi sistemi ilə onlayn rejimdə doldurulmalıdır. Onun doldurulması ilə bağlı təlimat elektron vergi sistemində yerləşdirilmişdir.

# Hindistan kriptovalyutaların satışından 18%-lik ƏDV tutulmasını planlaşdırır

Hindistanda bitkoin və digər kriptovalyutalar ilə aparılan ticarət əməliyyatları üçün18 faiz dərəcəsi ilə əlavə dəyər vergisinin (ƏDV) tutulması ətrafında müzakirələr aparılır. Nəzərdə tutulan yanaşmaya əsasən, rəqəmsal valyutaların hamısı proqram təminatına uyğun olaraq qeyri-maddi aktiv kimi qiymətləndirilməlidir. İndiki halda daha çox mübahisə doğuran məqam kriptovalyutalar ilə bağlı müvafiq hüquqi əsaslandırmanın olmamasıdır. Hazırda ölkənin Mərkəzi Bankı banklara kriptovalyutalar ilə əməliyyat aparmağı qadağan etmişdir və bu qərar məhkəmə təhqiqatının aparılmasına səbəb olmuşdur. Hələlik qüvvədə olan tələblərə görə, banklar kriptovalyutalar ilə əməliyyatları iyunun sonuna qədər dayandırmalıdırlar.

Bundan əlavə, Hindistan hökumətində rəqəmsal valyutaya fərqli münasibətlər var. Hökumətin iqtisadi qanadı kriptovalyutaların dövriyyəsinin tənzimlənməsinə tərəfdar olduğu halda, istintaq orqanları bunun ümumiyyətlə qadağan edilməsinə üstünlük verirlər. Hökumətin nümayiş etdirdiyi əsas mövqe isə bundan ibarətdir ki, keçən il iyulun 1-dən qüvvəyə minmiş ƏDV haqqında qanunun keçmiş tarixlə kriptovalyutalara tətbiqinin mümkünlüyü məsələsi ciddi araşdırılmalıdır. Kriptovalyuta əməliyyatları ilə yanaşı, mayninqin də vergitutma obyekti kimi qəbul edilməsi müzakirə obyektidir. Mayninq öz mahiyyətinə görə gəlir yaradan və tranzaksiyalar üçün yığımları əhatə edən xidmət kimi götürülür. Hindistanda irimiqyaslı mayninqlə məşğul olan fiziki şəxslərin ƏDV ödəyicisi kimi qeydiyyata alınacaqları gözlənilir.



# BFV Qazaxıstan iqtisadiyyatının aparıcı istiqamətlərini elan edib

Bu yaxınlarda Qazaxıstanın aparıcı KİV-ləri Beynəlxalq Valyuta Fondunun (BVF) Yaxın Şərq və Orta Asiya departamenti direktorunun müavini Yuxa Kyaxkonenin Qazaxıstan iqtisadiyyatının gizli potensialı və yaxın gələcəkdə ölkə iqtisadiyyatına təsir göstərə biləcək faktorlar barədə mülahizələrini dərc etmişdir.

«Regional iqtisadiyyatın inkişaf perspektivləri» adlı təqdimatda BVF yaxın illər üçün Qazaxıstan iqtisadiyyatının gələcəyini kifayət qədər nikbin qiymətləndirmişdir. Qazaxıstanda ümumi daxili məhsul (ÜDM) artımının 2018-ci ildə 3,2 faiz, 2019-cu ildə isə 2,8 faiz olacağı proqnozlaşdırılmışdır. Bu, keçənilki göstəricidən (4 faiz) aşağı olsa da, Yuxa Kyaxkonen aradakı fərqin nədən irəli gəldiyini şərh edərək bildirmişdir ki, 2017-ci ilin rəqəmləri daha çox Kaşaqan neft yatağının istismara verilməsi ilə bağlı olmuşdur: Qazaxıstan neft ixracı ilə məşğul olan ölkələrdəndir. Buna baxmayaraq, gələcəkdə onun iqtisadiyyatında kənd təsərrüfatı, «Bir qurşaq, bir yol» təşəbbüsü ilə bağlı layihələr, iqtisadi artım üçün verilən töhfələr, eləcə də hazırda öz iqtisadiyyatında ciddi islahatlar aparan Özbəkistanla ticarət və investisiyalar sahəsində əməkdaşlığın genişləndirilməsi başlıca rol oynayacaq. Müsbət amillər budur ki, iqtisadi artımın arxasında daha çox ölkənin qeyri-xammal sektoru dayanır. Biz bu sektorun rolunun iqtisadi artımda daha da güclənəcəyini gözləyirik. Bu isə orta müddəti əhatə edən perspektivdə ÜDM-in keçənilki kimi 4 faiz civarında qalmasına şərait yaradacaq.

BVF-nin Qazaxıstan üçün tövsiyələri bundan ibarətdir ki, ölkə iqtisadiyyatında özəl sektorun iştirakını artırmağa xüsusi diqqət yetirilməlidir. BVF rəsmisinin sözlərinə görə, bunu özəlləşdirmə, eləcə də kiçik və orta biznes də daxil olmaqla özəl şirkətlərin fəaliyyətinin canlandırılması üçün biznes mühitinin təkmilləşdirilməsi hesabına həyata keçirmək mümkündür: Bunlarla yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu amil əmək bazarına ciddi təsir göstərir. İşçi qüvvəsinin təhsil səviyyəsi yüksək olduqda müasir texnologiyalara daha asan uyğunlaşa bilir ki, gələcəyin iqtisadiyyatı bunun üzərində qurulacaq. Hazırda ən böyük əngəl yeni artım modelinin olmamasıdır, iqtisadiyyat hələ də güclü şəkildə birja mallarının, əsasən də neftin qiymətlərindən asılı vəziyyətdədir. İqtisadiyyat əhəmiyyətli dərəcədə dövlət tərəfindən idarə edilir. Gələcək islahatlarda özəl sektorun iqtisadiyyatdakı rolunun artırılması üçün maliyyə sektorunun vəziyyətinə xüsusi diqqət yetirmək lazımdır.

Bunları qeyd etməklə bərabər, BVF təmsilçisinin sözlərinə görə, Qazaxıstan ikitərəfli əlaqələr çərçivəsində qonşu dövlətlərlə, məsələn, Özbəkistanla, həmçinin Avrasiya İqtisadi İttifaqı ölkələri, «Bir qurşaq, bir yol» təşəbbüsləri vasitəsilə iqtisadi inteqrasiya sahəsində nailiyyətlər əldə etmişdir. Təqdimatda hökumətin bank sektoru üzərində nəzarəti və tənzimləməni gücləndirmək üçün Mərkəzi Banka daha geniş səlahiyyətlər verməsinə də müsbət qiymət verilmişdir.

Qazaxıstan ÜDM-in və infrastrukturun səviyyəsinə, bazarın həcminə görə Orta Asiya və Qafqaz ölkələri arasında öndədir. Dövlətin orta və uzun müddətlərə aid iqtisadi perspektivlər barədə planları aydındır. İstənilən ölkədən, o cümlədən regiondakı dövlətlərdən nəyisə öyrənmək mümkündür. Məsələn, Gürcüstanda daha yaxşı biznes mühiti və iqtisadi proseslərin şəffaflığı müşahidə edilir. Qazaxıstanın 2050-ci ilə qədər dünyanın ən böyük iqtisadiyyata malik 50 ölkəsi arasında yer tutmaq iddiası nəzərə alınsa, ölkə regiondan kənarda da nümunə götürə biləcəyi təcrübələri nəzərdən keçirməlidir. «Mən Qazaxıstana daha da iddialı olmağı, Kanada, Avstraliya səviyyəsinə çatmağı tövsiyə edərdim. Həmin ölkələr də Qazaxıstana oxşayırlar, onların da ucsuz-bucaqsız əraziləri var, onlarda da əhalinin sıxlığı azdır və onlar da təbii sərvətlərlə zəngindirlər. Ümidvaram ki, Qazaxıstan qarşıya qoyduğu hədəfin səviyyəsini yüksəldəcək və yeni zirvələr fəth edəcək», - Yuxa Kyaxkonen vurğulamışdır.

Yeri gəlmişkən, Qazaxıstanın Baş naziri Bakıtcan Saqinatayev Astana iqtisadi forumunda çıxışı zamanı qeyd etmişdir ki, keçən il ölkədə yeni Vergi Məcəlləsinin qəbul edilməsi və vergi islahatına başlanılması sayəsində ölkə iqtisadiyyatında investisiya artımı mənbələrinin axtarışı istiqamətində ciddi canlanma var: «Biz bu islahatlarla 2025-ci ilə qədər əlavə olaraq 4 trilyon tenge (20 milyard 634,3 milyon manat) vergi yığmağı planlaşdırırıq».

# Ronaldu vergi cərimәsini ödəməyə hazırdır

Madridin «Real» futbol klubunun və Portuqaliyanın yığma komandasının hücumçusu Kriştianu Ronaldu İspaniyada vergiləri tam ödəmədiyinə görə ona qarşı qaldırılmış məhkəmə işinin bağlanması üçün 14 milyon avro məbləğində cəriməni ödəməyə hazır olduğunu bildirmişdir.

Xatırladaq ki, Ronaldu 14,8 milyon avro məbləğində vergini ödəməkdən yayındığına görə ittiham edilir. Ulduz futbolçu indiyədək vergi qanunverciliyinin tələblərini pozması ilə bağlı ona qarşı irəli sürülən iddiaları rədd edirdi.

İspaniyada nəşr edilən «El Mundo» qəzetinin məlumatına əsasən, Ronaldu İspaniya qanunvericiliyinin tələblərini dörd dəfə pozduğunu etiraf etmişdir. Əvvəlcə o, dövlət büdcəsinə 3,8 milyon avro vəsait təklif etmiş, lakin vergi xidməti bundan imtina etmişdi.



## krossvord

**Yuxarıdan aşağı:** 1.Rusiyada şəhər; 2.Müəyyən işin gedişinə, icrasına nəzarət etməli olan şəxs, təşkilat; 3.İncə məqam; 4.Sirkə turşusunun duz və efirləri; 5.İsveçrə mətbəxinin Fransa və İtaliyada geniş yayılmış xörəyi; 6.Şairin hiss və həyəcanlarını şeir şəklində ifadə edən ədəbi növ; 9.Sakit okeanın qərbində dəniz; 13.Elektron sənəd qovluğu; 15.Kisəlilər infrasinfindən məməli heyvan; 16.Yunanıstanda mövcud olmuş qədim dövlət; 17.Orqanizmdə əsəb sistemlərinin normal vəziyyətdən kənara çıxması; 18.Beyin qabığının ümumi üzgünlüklə müşayiət olunan atrofiyası və psixi fəaliyyətinin dayanması; 20.Ölkəmizdə peşəkar futbol klubu; 21.İcazəsiz və gizli qaçış.

**Soldan sağa:** 1.Buxaq qırxılmaqla üzdə saxlanan saqqal və yarımsaqqal; 5.Ümumi qrammatik mənasına görə iş, hal və hərəkəti bildirib zaman, şəxs və kəmiyyətcə təsriflənən əsas nitq hissəsi; 7.Şimali Afrikada əsası Finikiyanın Tir şəhərindən gəlmiş kolonistlər tərəfindən qoyulmuş qədim dövlət; 8.Azərbaycan yazıçısı, ssenarist, şair, tərcüməçi; 10.Bolqarıstanda şəhər; 11.Türkiyənin ilk prezidenti, görkəmli dövlət xadimi, milli lider; 12.Müxtəlif ölçü və biçimdə olan mətbəə hürufatı; 14.Bağ, park və xiyabanlarda dekorativ və s. məqsədlə ot əkilmiş meydança; 19.Ukraynada kabusşəhər; 21.Azərbaycanın məşhur estrada müğənnisinin adı; 22.Müntəzəmlik; 23.ABŞ-da ştat; 24.Sahə ölçü vahidi (4046,86 kv.m.); 25.Riyazi proqramlaşdırmanın ümumi məsələsi, müəyyən şərtlər daxilində hər hansı funksiyanın maksimum («max») və ya minimum («min») qiymətinin təyini məsələsinə deyilir.



Şimali Afrikada əsası Finikiyanın Tir şəhərindən gəlmiş kolonistlər tərəfindən qoyulmuş qədim dövlət

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qrifon; 2.Antanta; 3.Maraq; 4.Fleyta; 5.Mehdi *(Hüseynzadə)*; 6.Hörmət; 9.Urna; 13.Klip; 15.Lümbaqo; 16.Balans; 17.Tanker; 18.Fleqma; 20.«Almaz»; 21.Tiara. **Soldan sağa:** 1.Qrammofon; 5.Meh; 7.İnteryer; 8.Əhər; 10.Oynaq; 11.Türkiyə; 12.Bankə; 14.Layla; 19.Amaliya *(Pənahova)*; 21.Tamil; 22.Alma; 23.Akvalanq; 24.«Söz»; 25.Barkarola.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev, anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu, redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

# Cümhuriyyətin 100 illik yubileyinə həsr olunmuş veloyürüş



Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının nəzdindəki Velosiped İdman Klubu tərəfindən «Xalq Cümhuriyyətinin varisləriyik» devizi altında veloyürüş keçirilib.
Veloyürüşdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, DTX-nin velosiped klubunun üzvləri, eləcə də həvəskar velosipedçilər iştirak ediblər.

# Falkao da «ilişdi»...



İspaniyanın «Atletiko» futbol klubunun keçmiş hücumçusu Radamel Falkao vergidən yayındığı üçün Madrid məhkəməsi tərəfindən 16 aylıq həbs cəzasına məhkum edilməklə yanaşı, 9 milyon avro məbləğində cərimələnib. Lakin Madriddə keçirilən məhkəmədə günahkar olduğunu bildirən kolumbiyalı həbsxanada yatmayacaq. İspaniya qanunlarına görə, həbsxanaya yalnız 2 ildən artıq cəzaya məruz qalanlar salınır. Ona görə də ulduz futbolçu yalnız cəriməni ödəməklə «canını qurtaracaq». Falkao 2011-2013-cü illərdə «Atletiko»da çıxış edərkən gəlirlərini gizlədib. O, 2011-2013-ci illərdə «Atletiko»un heyətində 91 oyuna çıxıb, 70 qol vurub və 17 məhsuldar ötürmə verib, həmçinin Avropa Liqasını, Avropa Super Kubokunu və İspaniya Kubokunu qazanıb.

# Azərbaycan kuboku yeni sahibini tapdı...



May ayının 28-də futbol üzrə Azərbaycan kubokunun final matçı keçirilib. Qəbələ şəhər stadionunda oynanılan qarşılaşmada Bakının «Keşlə» komandası yerli «Qəbələ» klubu ilə üz-üzə gəlib.

Baş hakim Rauf Cabbarovun idarə etdiyi oyunun ilk hissəsi, tərəflərin qarşılıqlı hücumlarına baxmayaraq, heç-heçə yekunlaşıb - 0:0. Görüşün ikinci hissəsində isə taktiki cəhətdən daha üstün oyun nümayiş etdirən «Keşlə» komandası hesabı açmağa nail olub. Matçın 71-ci dəqiqəsində bakılıların futbolçusu Vaqif Cavadovun məhsuldar ötürməsindən sonra Pərdis Fərcad-Azad topu qolkiperin başı üzərindən qapıya göndərib - 1:0. «Qəbələ»nin bütün cəhdlərinə baxmayaraq, qalan dəqiqələrdə qapılara top vurulmayıb və matç «Keşlə»nin minimal hesablı üstünlüyü ilə başa çatıb. Bu qələbə ilə «Keşlə» klubu tarixində ilk dəfə Azərbaycan kubokunun sahibi olmaqla, həm də ölkəmizi UEFA Avropa Liqasında təmsil etmək hüququ qazanıb.

Azərbaycan kubokunun finalında ardıcıl ikinci məğlubiyyətlə üzləşən «Qəbələ»nin baş məşqçisi Roman Qriqorçuqun matçdan sonra istefa verməsi (qəbələlilər ötən il final görüşündə «Qarabağ»a 0:2 hesabı ilə məğlub olmuşdular) isə anlaşılandır.

# Cüdoçularımız etimadı doğrultdular




Portuqaliyanın Koimbra şəhərində yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışları keçirilib. 28 ölkədən 416 idmançının (241 oğlan, 175 qız) mübarizə apardığı mötəbər turnirdə Azərbaycan millisi 15 cüdoçu (10 oğlan, 5 qız) ilə təmsil olunub.

Beynəlxalq turnirdə uğurla çıxış edən cüdoçularımız 8 medal qazanıblar. Millimizin üzvləri Zaməddin Poladov (60 kq), Vüqar Talıbov (66 kq) və Toğrul Salmanov (90 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək qızıl medal əldə ediblər. Yalnız finalda uduzan Şükran Zamanlı (50 kq) gümüş medalla kifayətlənib. Mətin Rzazadə (60 kq), Aytac Qardaşxanlı (48 kq), Kamran Novruzov (73 kq), İbrahim Ağakişiyev (81 kq) isə bürünc medal qazanıblar.

Beləliklə, Azərbaycan cüdoçuları Portuqaliyada 3 qızıl, 1 gümüş və 4 bürünc medala layiq görülüblər.

mozaika

tədqiqat

## Neandertal genləri əsasında...



Genetiklər neandertal insan dövrü ilə müasir biologiyanın müqayisəsi əsasında insan zəkasının təkamülü xəritəsini yaratmaq istəyirlər. Alimlər tərkibində neandertal insana məxsus DNT olan süni «kiçik beyin» yaratmaq və onun müasir insandan fərqini öyrənməyə hazırlaşırlar. Yaxın bir neçə ayda əsas hüceyrələrdən alınaraq böyüdüləcək beyin orqanoidləri adlanan kiçik hüceyrələr vasitəsilə bir sıra genlərin «neandertallaşması» versiyası üzərində tədqiqatlar aparılacaq. Mərcimək ölçüsündə olan, düşünmə və hissetmə qabiliyyəti olmayan orqanoidlər yetkin insan beyninin əsas strukturlarından bir neçəsinin surətini çıxaracaq.

Almaniyanın Leypsiq Universitetinin Təkamül Antropologiyası İnstitutunun professoru Svante Paabo deyir ki, neandertallar genlərinə görə müasir insana daha yaxındır və müqayisəli tədqiqatlar insan beyninin inkişafının bir çox sirlərini üzə çıxarmağa imkan verəcək. Onun rəhbərlik etdiyi laboratoriyada uzun müddət neandertal genomunun üzərində beynəlxalq araşdırmalar aparılıb və hazırda bu genlərin siçanların kəllə-sifət nahiyəsi və qurbağa yumurtalarına yeridilməsi üzrə tədqiqatlar davam edir. Məqsəd bu canlılarla insan arasında ağrıların beyində hiss edilməsindəki fərqləri aşkar etməkdir. «Əgər biz əsəb sistemində fundamental fərqləri tam öyrənə bilsək, o zaman insan idrakının bu qədər inkişaf etməsinin səbəblərini də biləcəyik», - deyə professor Paabo əlavə edib.

2010-cu ildə alimlər on minlərlə il əvvəl Avropada yaşamış dörd qadının qalıqları vasitəsilə neandertal genlərinin kodlarını toplayıb və onları müasir insan genomu ilə müqayisə ediblər. Məlum olub ki, neandertal genlərinin üçdəbiri modern insanda olduğu kimidir. Professor Paabonun sözlərinə görə, bu tədqiqatlar dünyaya yayılmış milyonlarla, sonradan milyardlarla insanların düşüncə və mədəniyyət fərqlərini də araşdırmağa kömək edəcək. O bildirib: «Hələ də müxtəlif coğrafiyalarda yaşayan insanlar arasında idrak fərqinin səbəbini tam araşdırmaq mümkün olmayıb. Son tədqiqatlar beynin inkişafını müəyyən edən üç əsas genin öyrənilməsi üzrə aparılacaq. Neandertal genlərinin beynin inkişafına təsirini öyrənmək üçün müxtəlif irqlərin nümayəndələri üzərində aparılacaq tədqiqatlar nəticəsində maraqlı yeniliklər üzə çıxa bilər».

Harvard Universitetinin professoru Corc Çörç isə bildirir ki, 400 min il əvvəl müasir insanlar və neandertallar bir-birindən ayrılıb. Belə ki, əcdadlarımız Afrikada qalıb, neandertallar isə Avropanın şimalına hərəkət ediblər. Arxeoloji qazıntılara görə, təqribən 60 min il əvvəl müasir insanların Afrikadan kütləvi köçü baş verib və bu iki insan növü yenidən üz-üzə gəlib. Çörçün fikrincə, neandertalların müəyyən sənət növləri yaratması barədə fərziyyələr olsa da, onların 100 min il əvvəl müasir insanlar kimi okeanlardan istifadə etməsi, qayıqlar düzəltməsi ilə bağlı sübutlar yoxdur.

Professor Paabo əlavə edib: «Sakit okeana girmək və nəhayətsiz sularda üzmək neandertalların atacağı addım deyildi. Onlar digər məməlilər kimi ağıllı olublar. Onların okeanın digər sahilini görmədən yola düşmələri ağlabatan deyil. İndiyədək məni təəccübləndirən bizim əcdadımızın buna necə cəsarət etməsidir».

araşdırma

## Dayanıqlığın sirri



İtaliyalı alimlər qrupu «Piza» qülləsinin əsrlərə sinə gərən dayanıqlığının sirrini öyrənməyə nail olub. Beş dərəcəlik mailliyinə baxmayaraq, 58 metrlik qüllə 1280-ci ildən bəri ən azı dörd güclü zəlzələyə tab gətirib. Landşaftın xüsusiyyətlərini və memarlıq fenomeninin quruluşunu tədqiq edən «Roma Tre» universitetinin alimləri qüllənin dayanıqlığının «qurğu-qrunt» dinamik əks-təsiri ilə bağlı effektlə təmin olunduğunu müəyyən ediblər. Tədqiqatçıların fikrincə, qüllənin hündürlüyü və sərtliyi onun bünövrəsindəki yumşaq qrunta əks-təsir göstərir və bunun sayəsində memarlıq nümunəsi yeraltı təkanlar zamanı torpaqla rezonansa girmir.

Xatırladaq ki, qeyri-adi vəziyyətinə görə dünya şöhrəti qazanan «Piza qülləsi» Duomo Santa Maria Assunta kilsəsinin zəng qülləsidir. O, tikinti zamanı maili vəziyyət alıb, sonradan isə maillik bucağı qüllə sabitləşdirilənə qədər tədricən artıb.

Azərbaycan Xalq Cümhuriyyəti – 100

## Paytaxtda möhtəşəm bayram konserti

Mayın 28-də Bakı Kristal Zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş konsert olub. Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanmış bədii-musiqili gecənin konsepsiyası Cümhuriyyətin yaranması, ötən 100 il ərzində respublikamızın müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər, Azərbaycanın hazırda müstəqil, güclü və inkişaf etmiş ölkələr sırasında layiqli yerini tutması ideyası üzərində qurulub.




Xalq artisti Alim Qasımov və Əməkdar artist Fərqanə Qasımovanın ifasında «Qarabağ» şikəstəsi, «Natiq» ritm qrupunun «Sarı gəlin» kompozisiyası, dahi bəstəkar Üzeyir Hacıbəylinin «Koroğlu» operasından uvertüra, habelə Qara Qarayevin «Yeddi gözəl», Fikrət Əmirovun «1001 gecə», Arif Məlikovun «Məhəbbət əfsanəsi» baletlərindən rəqslər, Xalq artistləri Azərinin, Zülfiyyə Xanbabayevanın, Samir Cəfərovun ifalarında «Ey Vətən», «Şuşanın dağları» və «Neftçilər» mahnıları böyük maraqla dinlənilib. Xalq artistləri Aygün Kazımova, Azər Zeynalov, Emin, Elçin Əzizov, Əməkdar artistlər Emil Əfrasiyab, Səbinə Babayeva, Tünzalə Ağayeva, Miri Yusif və Röyanın, «Rast» qrupunun, Azərbaycan Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin çıxışları bayram təntənəsi yaşadıb. Proqramdakı musiqi nömrələri, rəqslər Azərbaycanın zəngin tarixinə bir daha hərtərəfli nəzər salmağa imkan yaradıb.

Tədbirdə ümummilli lider Heydər Əliyevin Xalq şairi Səməd Vurğunun «Azərbaycan» şeirini səsləndirdiyi videoçarx da nümayiş etdirilib.

Tədbirin sonunda birlik və həmrəylik, müstəqilliyimizin əbədiliyinə qəti inam rəmzi olaraq incəsənət ustaları hamılıqla səhnəyə çıxaraq Azərbaycanın dövlət himnini oxuyublar. İki saata yaxın davam edən konsert proqramına ümumilikdə 670 nəfərdən çox şəxs - tanınmış incəsənət xadimləri və yaradıcı heyət cəlb edilib.

Konsert proqramı Dənizkənarı Milli Parkda quraşdırılmış monitorda birbaşa yayımlanıb. Sonda möhtəşəm bayram atəşfəşanlığı olub.

cəmiyyət

## Süni intellekt üzrə onlayn kurs



Finlandiyanın Helsinki Universiteti «Reaktor» şirkəti ilə birgə süni intellekt üzrə online kurs istifadəyə verib. Kursda təxminən 54 min insanın iştirakı gözlənilir. «Süni intellektin elementləri» adlı onlayn kurs ödənişsizdir və hər bir ölkə vətəndaşı üçün əlçatandır. Təxminən 30 saat ərzində kursu müvəffəqiyyətlə başa vuran şəxslər «LinkedIn» sosial şəbəkəsində dərc olunmaq üçün sertifikat əldə edəcəklər.

Kursun yaradıcılarından olan Yanin Faqerlundun sözlərinə görə, proqram texnologiya ilə bağlı sirri açmaq üçün hazırlanıb. Alim süni intellektin köməyi ilə vacib sosial problemlərin həll olunacağına ümid edir. Artıq 20-75 yaş intervalında olan 24 min insan kurs üçün qeydiyyatdan keçib.

**Müdriklər deyib ki...**



***«Gözəlliyin əlavə bəzəyə ehtiyacı yoxdur – onu daha da gözəlləşdirən bəzəksizliyidir».***

***İohann Herder (1744–1803).***